QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 086 (5806) **14 may** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# “Azərbaycan Avropa İttifaqı üçün etibarlı və məsuliyyətli tərəfdaşdır”

*Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşüb*



Səh 2

Azərbaycan-Belçika ikitərəfli münasibətləri uğurla inkişaf edir



2

Heydər Əliyev Mərkəzində “Azərbaycana sevgi ilə” konsert proqramı təqdim olunub



4

Müxalifət niyə və necə antimilli ünsürə çevrilir?



5

“Əhali sərəncam və fərmanların nəticəsini görür”



6

DSX-nin Qarabağ atları üzərində süvarilər dəstəsinin və rəqs ansamblının təqdim etdiyi şou-kompozisiya Britaniya Kraliçasının marağına səbəb olub



6

Radikal qrupların mövcudluğu xaricdəki mərkəzlərin dəstəyi ilə bağlıdır



9

7

Bakıya tuşlanan “İNGİLİS BARMAĞI”: Olimpiya stadionundakı final fiti hansı səsləri batıracaq?



9

“Azərbaycana qarşı yenə də çirkin kampaniya başlayıb”



16

UEFA Avropa Liqasının finalını İtaliyalı hakimlər idarə edəcək



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

14 may 2019-cu il

# "Azərbaycan Avropa İttifaqı üçün etibarlı və məsuliyyətli tərəfdaşdır"

*Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşüb*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə görüşüb. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu.***

Ölkəmizin Avropa İttifaqı üçün etibarlı və məsuliyyətli tərəfdaş olduğunu qeyd edən Donald Tusk Azərbaycanın regiondakı rolunun Avropa İttifaqı tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Avropa ittifaqı arasında münasibətlər çox uğurla inkişaf edir və ölkəmiz bu əlaqələrin genişlənməsinə böyük önəm verir.

Dövlətimizin başçısı Avropa İttifaqı Şurasının prezidenti Donald Tuska Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesi barədə məlumat verdi.

Görüşdə ötən il Azərbaycan və Avropa İttifaqı arasında imzalanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin əhəmiyyəti vurğulandı, həmçinin tərəflər arasında üzərində danışıqlar aparılan tərəfdaşlıq sazişi ilə bağlı fikir mübadiləsi aparıldı. Söhbət zamanı Azərbaycanın istər Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində və istərsə də ikitərəfli formatda Avropa İttifaqı ilə yaxından əməkdaşlığı xüsusi qeyd olundu.





# Azərbaycan-Belçika ikitərəfli münasibətləri uğurla inkişaf edir

*Azərbaycan Prezidenti İlham Əliyev Brüsseldə Belçikalıların Kralı Filip ilə görüşüb*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Belçika Krallığına işgüzar səfərə gəlib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçikalıların Kralı Əlahəzrət Filip ilə görüşü olub.***

Görüşdə Azərbaycan-Belçika ikitərəfli münasibətləri, regiondakı vəziyyət və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi.

Prezident İlham Əliyev Belçikalıların Kralı Əlahəzrət Filipə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumat verərək Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunduğunu, münaqişənin həllinin yalnız BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında və ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün olduğunu diqqətə çatdırdı.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əməkdaşlıq məsələlərinə toxunuldu, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olundu və Prezident İlham Əliyevin Belçikaya səfərinin ikitərəfli münasibətlərin genişləndirilməsinə töhfə verəcəyi bildirildi.

# Güclü iqtisadiyyatın təminatı - ərzaq təhlükəsizliyi sahibkarlıq faktoru

*İlham Əliyev: "Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlətin verdiyi dəstək heç bir başqa ölkədə yoxdur"*



***Son illər Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub desək, yanılmarıq. Belə ki, qeyri-neft sektorunda mühüm istiqamətlərdən olan kənd təsərrüfatının inkişafının prioritet hesab edildiyi respublikamızda, ötən müddət ərzində görülən işlər, həyata keçirilən islahatlar öz məntiqi nəticəsini verməkdədir. Bunu isə şərtləndirən əsas amillərdən biri hər region üzrə spesifik olan sahələrin müəyyənləşdirilməsi və həmin sahələrin inkişafına diqqətin artırılmasıdır.***

Təkzibolunmaz reallıqdır ki, bu gün Azərbaycan sürətlə inkişaf edir və həyatın bütün sahələrində ciddi dəyişikliklər müşahidə olunur. Bu isə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi kimi, iqtisadiyyatın modernləşdirilməsi siyasəti vasitəsilə mümkündür.

## Azərbaycanda analoqu olmayan dəstək

Artıq ənənəvi hal alan ölkə Prezident İlham Əliyevin regionlara səfərləri zamanı keçirdiyi müşavirələrdə dövlət tərəfindən verilən dəstəkdən danışarkən, bildirib ki, Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlət tərəfindən verilən dəstək heç bir başqa ölkədə yoxdur: "İlk növbədə, əgər biz vergi siyasətinə nəzər salsaq, görərik ki, ölkəmizdə fermerlər bütün vergilərdən azad olunublar, təkcə torpaq vergisindən başqa".

Ölkə Prezidenti, həmçinin, fermerlərə göstərilən dövlət dəstəyindən danışaraq, bildirib ki, bu, dövlət tərəfindən fermerlərə göstərilən böyük dəstəkdir: "Əlbəttə ki, bu, dövlət tərəfindən fermerlərə göstərilən böyük dəstəkdir. Dövlət xətti ilə ən müasir texnika alınır... Fermerlərə subsidiyalar verilir. Qeyd etdiyim kimi, güzəştli şərtlərlə kreditlər verilir. Yanacağın, gübrənin böyük hissəsi dövlət tərəfindən təmin edilir, metodik tövsiyələr verilir. Dövlət tərəfindən verilən tövsiyələr əsasında 40-a yaxın müasir aqropark yaradılır. Yəni sahibkarlara, fermerlərə dövlət tərəfindən bu qədər dəstək verilir və biz bunun nəticəsini də görürük. Sahibkarlar da, fermerlər də bu işlərə məsuliyyətlə yanaşırlar, götürülmüş kreditlər vaxtında qaytarılır. Növbəti illərdə bütün sahələr üzrə konkret işlər görüləcək".

## İqtisadi inkişaf baxımından dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmayıb

Prezident İlham Əliyev Sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası zamanı əldə olunan nailiyyətlərdən danışırkən, bildirib ki, son 15 il ərzində iqtisadi baxımdan, dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır.

Dövlət başçısı kənd təsərrüfatı ilə bağlı aparılan islahatlar haqqında danışarkən, bildirdi ki, bu sahə daim diqqət mərkəzindədir: "Mən deyə bilərəm ki, Azərbaycan bu sahədə dünya miqyasında fermerlərə dəstək baxımından ən qabaqcıl ölkələrdən biridir. Həm də onlardan vergilər də tutulmur, torpaq vergisi istisna olmaq şərti ilə. Yəni bu sahəyə maksimum dəstək verilir. Bu sahədə aparılan islahatlar, əminəm ki, daha da böyük nəticələrə gətirib çıxaracaq. Hesab edirəm ki, idiki 3,6 faiz artım bizim potensialımızı tam əks etdirmir. Çünki bu qədər işlər görülür - həm meliorativ tədbirlər, həm dövlət tərəfindən dəstək. Fındıqçılıq, üzümçülük, pambıqçılıq, taxılçılıq, meyvəçilik, tərəvəzçilik sahəsində görülən işlər indi burada məruzədə də səsləndi. Yəni bizim istehsalımız və ixracımız böyük dərəcədə artır. Mən hesab edirəm ki, görülmüş işləri və islahatları nəzərə alsaq, kənd təsərrüfatında artım daha da yüksək ola bilər".

## "Azərbaycanda güclü sahibkarlar sinfi formalaşıb"

Dövlət başçısı sözügedən müşavirədə bütün işlərdə sahibkarların rolunu da qeyd edərək, söylədi ki, son vaxtlar Azərbaycanda güclü sahibkarlar sinfi formalaşıb: "Mən sahibkarları daim dəstəkləyirəm, sahibkarlarla çoxsaylı görüşlərdə onlara öz dəstəyimi ifadə edirəm, dövlət onları dəstəkləyir, həm güzəştli kreditlərlə, həm tövsiyələrlə və yaradılmış şəraitlə. Əgər infrastruktur layihələri olmasa idi, sahibkar investisiya qoya bilməzdi. Əgər işıq, qaz, yol yoxdursa, hansı sahibkar harasa vəsait qoya bilər. Biz bunu yaratdıq, üstəlik, kreditlər də verdik. Bu günə qədər sahibkarlara 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilmişdir. Təkcə bu il 170 milyon manat həcmində kredit veriləcək, əvvəllər verilmiş və qaytarılan kreditlər hesabına. Ona görə sahibkarlar bundan sonra da fəal olmalıdırlar və yeni müəssisələr, iş yerləri yaradılmalıdır. Mən onlara tövsiyə etmişdim ki, mövcud müəssisələrdə əlavə iş yerləri yaratsınlar. Çünki dövlət 40 min ödənişli ictimai iş yeri yaradır. Mənə verilən məlumata görə, sahibkarlar bu il təqribən 8 min ödənişli ictimai iş yeri yaradacaqlar. Bu, onlar üçün böyük bir yük olmayacaq, ancaq vətəndaşların məşğulluq problemini həll edəcək".

Beləliklə, göstərilən faktlar, bir daha sübut edir ki, Azərbaycan iqtisadiyyatı inkişaf edir və kənd təsərrüfatının bütün sahələrinin inkişafı isə Azərbaycanın ixrac potensialını artıracaq ki, bu da həm ölkəyə valyuta axınını artıracaq, həm də Azərbaycan məhsullarının dünya bazarlarına çıxışını sürətləndirəcək. Ən əsası isə, ərzaq təhlükəsizliyinin təmin olunmasına yol açacaq. Təsadüfi deyil ki, elə Prezident İlham Əliyev çıxışlarında ənənəvi olan sahələrin uğurla inkişaf etdirildiyini də bildirib: "Pambıqçılıq. Biz pambıqçılığın şöhrətini bərpa etdik. İki il ərzində çox böyük işlər görüldü. Pambıq sahələri 17 min hektardan 136 min hektara çatdırıldı... Tütünçülük, fındıqçılıq, baramaçılıq sürətlə inkişaf edir".

Göründüyü kimi, Azərbaycan iqtisadiyyatının prioritet sahələrindən biri olan kənd təsərrüfatının inkişaf etdirilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğı ildən-ilə artır. Əlbəttə ki, dövlət başçısının ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı görülən işlərin sürəti bundan sonra daha da artırılacaqdır. Çünki kənd təsərrüfatının inkişaf etdirilməsi, dövlətin iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yüksəlməsinə, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə, zəmin yaradacaq. Azərbaycan yaxın illərdə özünü vacib ərzaq məhsulları ilə təmin etməklə yanaşı, həm də bu sahədə regionun əsas ixracatçı ölkəsinə çevrilməsinə stimul verəcəkdir.

**R.KAMALQIZI**

## Rəsmi xronika

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Fuad Ələsgərovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Fuad Murtuz oğlu Ələsgərov "Şöhrət" ordeni ilə təltif edilib.




## Avropa azərbaycanlıları Brüsseldə Azərbaycan Prezidentinə dəstək aksiyası keçiriblər




***Mayın 13-də Avropa azərbaycanlılarının təşəbbüsü ilə Belçikanın paytaxtı Brüssel şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qarşılanması və ona dəstək aksiyası keçirilib. AZƏRTAC xəbər verir ki, aksiyanın əsas təşkilatçısı Azərbaycan-Belçika Dostluq Cəmiyyətidir. Dəstək aksiyasına Almaniya, Hollandiya, Macarıstan, Belçika, Fransa və digər Avropa ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının rəhbərləri və üzvləri qoşulublar.***

Aksiyada "Cənab Prezident, Avropaya xoş gəlmisiniz!", "Cənab Prezident, Sizi salamlayırıq!" və sair şüarlar səsləndirən soydaşlarımız Azərbaycan dövlətinin başçısını və onun siyasi kursunu daim dəstəklədiklərini bəyan ediblər. Aksiya iştirakçıları bundan sonra da Prezident İlham Əliyevə daim dəstək olacaqlarını bildiriblər.





# Heydər Əliyev Mərkəzində "Azərbaycana sevgi ilə" konsert proqramı təqdim olunub

***Mayın 11-də Heydər Əliyev Mərkəzində opera sənətinin tanınmış nümayəndələri Anna Netrebko, Yusif Eyvazov və Elçin Əzizovun iştirakı ilə "Azərbaycana sevgi ilə" konsert proqramı təqdim edilib. AZƏRTAC xəbər verir ki, alqışlarla keçən konserti izləyənlər arasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da olub.***

Müxtəlif operalardan ariyaların daxil olduğu konsert proqramında ifaçıları Fuad İbrahimov və Murtuza Bülbülün dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edib.

Musiqili gecədə G.Verdinin, F.Cileanın və G.Puççininin əsərləri ifa olunub. Qeyd edək ki, Anna Netrebko (soprano) Rusiyanın XXI əsrdə ən görkəmli opera ifaçılarından biridir. O, yaratdığı obrazlar, cəsarətli və dramatik repertuarı ilə opera sənəti tarixində mühüm yer tutur. Anna Netrebko 2007-ci ildə ABŞ-ın məşhur "Time" jurnalının dünyanın ən nüfuzlu 100 şəxsinin siyahısına daxil olub. Rusiya Federasiyasının Xalq artisti və Dövlət mükafatı laureatı olan A.Netrebko müxtəlif ölkələrdə bir çox mükafatlarla, o cümlədən Rusiya ilə Azərbaycan arasında musiqi sənəti sahəsində əməkdaşlığın möhkəmləndirilməsində səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının "Dostluq" ordeni ilə təltif edilib. Diskoqrafiyasına operalar, konsert proqramları, bestsellerə çevrilmiş solo musiqi albomları və həyat yoldaşı Yusif Eyvazovla duetləri daxildir.

Yusif Eyvazov (tenor) Azərbaycanın Xalq artistidir. İfaçının repertuarına dramatik istedad və vokal bacarıqlarını göstərməyə imkan verən opera partiyaları daxildir. 2010-cu ildə Rusiya Dövlət Akademik Böyük Teatrında Kavaradossi ("Toska", C.Puççini) obrazı ilə debütü onun beynəlxalq karyerasının başlanğıcı olub. Bundan sonra La Skala, Metropoliten-opera, Vyana, Paris operaları və digər nüfuzlu teatrlardan dəvət alıb. Onun adı "Dünyanın ən yaxşı tenorları" kitabına daxil edilib.





Azərbaycanın Xalq artisti Elçin Əzizov (bariton) "Bakılı oğlanlar" Şən və Hazırcavablar Klubunun üzvü olub. 2005-ci ildə Avstriyada "Motsareum" Universitetinin Yay akademiyasında təhsil alıb, daha sonra Bakı Musiqi Akademiyasının vokal şöbəsində təhsilini davam etdirib. 2007-ci ildə Qalina Vişnevskayanın opera studiyasında çalışıb. 2008-ci ildən Rusiya Dövlət Akademik Böyük Teatrının solistidir. Dünyanın böyük opera və konsert salonlarında çıxış edir. 2017-ci ildə Anna Netrebko və Yusif Eyvazovla birlikdə opera ulduzlarının "Half Way Around The World" konsert turunda iştirak edib. Tur çərçivəsində 6 ölkənin 8 şəhərində konsertlər verib.

# YAP ağacəkmə aksiyası keçirib

***Yeni Azərbaycan Partiyası mayın 11-də Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Suraxanı rayonu ərazisində ağacəkmə aksiyası keçirib. SİA-nın verdiyi məlumata görə, aksiyada YAP İdarə Heyətinin və Siyasi Şurasının üzvləri, Milli Məclisin deputatları, partiyanın yerli təşkilatlarının fəalları iştirak ediblər.***













Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, Azərbaycan xalqı Ümummilli Liderimiz Heydər Əliyevin doğum gününü böyük təntənə ilə qeyd edir. Onun sözlərinə görə, YAP da bu əlamətdar hadisəni müxtəlif tədbirlərlə qeyd edir və bu ənənə halını alıb: “Ağacəkmə aksiyası da bu tədbirlərdən biridir. Ənənəvi olaraq biz hər il belə aksiya keçiririk. İndi də Suraxanı rayonunun bu ərazisində yaşıllıq salınmasında iştirak edirik. Bununla bir tərəfdən Ulu Öndər Heydər Əliyevin unudulmaz xatirəsini yad edirik, digər tərəfdən yaşıllıq zolağını salmaqla Bakının ekologiyasının yaxşılaşdırılmasına öz töhfəmizi veririk”.

Əli Əhmədov qeyd edib ki, mahiyyət etibarilə YAP böyük bir gücü özündə ehtiva edir. Bu güc Azərbaycanın inkişafı naminə öz imkanlarını həmişə səfərbər edir. “Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi strategiyanın reallaşmasında partiyamızın nümayəndələri həmişə böyük fədakarlıq nümunələri göstəriblər. Bu aksiyada iştirak etməklə də, bizim partiyamız Prezidentimizin həyata keçirdiyi ekoloji siyasətə dəstək verir. Bütün bunlar partiyamızın mahiyyətindən irəli gəlir. Biz qurucu, yaradıcı partiyayıq. YAP öz gücünü, mütəşəkkiliyini Azərbaycan dövlətinin qüdrətinin daha da artmasına səfərbər edib. YAP təkcə siyasi proseslərdə iştirak etməklə öz missiyasını bitmiş hesab etmir, həm də cəmiyyət üçün əhəmiyyətli olan bütün proseslərdə bundan sonra da fəal iştirak edəcək. Bunu vətəndaşlıq vəzifəsi hesab edirik”-deyə, YAP Sədrinin müavini vurğulayıb. Qeyd edək ki, ağacəkmə aksiyası çərçivəsində 1.5 hektar ərazidə 1000-dən artıq ağac əkilib.

# Müxalifət niyə və necə antimilli ünsürə çevrilir?

***“İnsanın özgələşməsi, yəni sosial yadlaşması təkcə şəxsi faciə deyil, eyni zamanda ictimai təhlükəli hadisədir. Cəmiyyətdə qəbul olunmuş dəyərlərə və birgəyaşayış normalarına məhəl qoymayanlar ictimai mühitdə yad ünsürə çevrilərək, özgələşərək ictimai normaların və dəyərlərin daşıyıcısı mahiyyətini itirmiş olurlar. Eyni zamanda ictimai maraqlar onlar üçün mənasızlaşır, şəxsi maraqlar və ya ambisiyalar dominant rol oynamağa başlayır”. SİA-nın verdiyi məlumata görə, bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov deyib.***



Ə.Əhmədov bildirib ki, sosial yadlaşma Azərbaycanın bəzi müxalifət nümayəndələrinin timsalında özünü aydın surətdə göstərir: “Siyasi davranış və normalardan, siyasi əxlaq tələblərindən üz döndərməklə onlar əslində cəmiyyətin siyasi sisteminin vacib ünsürü olmaq şanslarını itirir. Bu isə şəxsi (qrup) maraqlar ilə milli maraqların toqquşması, birincinin ikinci üzərində dominantlığı ilə müşayiət olunur. Nəticə etibarı ilə antimilli ünsürün formalaşması prosesi baş verir.

Müxtəlif milli şüarlar altında, əslində isə milli maraqlara zərbə vuran davranışın sərgilənməsi antimilli fəaliyyətin növ müxtəlifliyidir. Həm də bu daha təhlükəli olması ilə fərqlənir. Onun təhlükəsi ondadır ki, cəmiyyətin özünümüdafiə immunitetini çaşdırmaqla milli maraqlara daha ağır zərbə vurmaq imkanına malikdir. Hər bir cəmiyyətin yad təsirlərə, təhdidlərə qarşı immuniteti var və onun sayəsində milli birlik, həmrəylik, milli iradə kimi özünümüdafiə mexanizmi formalaşıb fəaliyyət göstərir. Bu mexanizm zəiflədikdə və ya zəiflədildikdə avtomatik olaraq cəmiyyətin özünümüdafiə immuniteti zəifləmiş olur. Dövlətlərarası müasir kəskin rəqabət şəraitində ayrı-ayrı cəmiyyətlərin özünümühafizə immunitetinin zəiflədilməsi ölkələrə qarşı təzyiq və təhdid vasitələri sırasında xüsusi əhəmiyyət kəsb edir”.

Ə.Əhmədov vurğulayıb ki, Azərbaycan müxalifətinin müəyyən kəsiminə aid olan azsaylı qrupların və konkret fərdlərin sərgilədiyi siyasi davranış milli maraqlara qarşı çevrilmiş antimilli fəaliyyətə ən xarakterik nümunədir: “Əvvəla bu davranış, davranış formaları milli maraqlara münasibət baxımından cəmiyyətin birliyi və həmrəyliyini zədələmək kimi çirkin və təhlükəli məqsədə xidmət edir. İkincisi, həmin qrupların hədəfində Azərbaycanın imicinin pisləşməsi, ölkəmiz haqqında mənfi rəyin formalaşmasından ibarət məkrli niyyət dayanır. Üçüncüsü isə, onlar Azərbaycana qarşı fəaliyyət göstərən qatı antiazərbaycan qüvvələrlə işbirliyi qurur, sonuncuların əlində çirkli bir vasitəyə çevrilirlər.

Nümunə üçün uzağa getməyə ehtiyac yoxdur. Azərbaycan müxalifətinin həm Azərbaycanda, həm də Azərbaycandan kənarda olan nümayəndələri tərəfindən yorulmadan yalan, böhtan, ləkələmə və təhqir kampaniyasının aparılması antimilliliyin “parlaq” nümunəsidir. Onlar özünü nəinki Azərbaycan cəmiyyətinin üzvü kimi dərk edə bilmir (yaxud istəmir), habelə bütün gücünü ölkəyə qarşı təbliğat aparmağa sərf edir.

Təbii ki, öz vətəninə qarşı bu cür satqınlıq maraqlı qüvvələr tərəfindən “qiymətləndirilməyə” bilməz. Onlar dərhal qanadlar altına alınır, sığınacaq verilir, yaşayışları təmin edilir, övladları bahalı universitetlərdə təhsil alır. Ancaq heç nə əvəzsiz olmur. Həmin insanlar aldıqlarının əvəzini şərəfsiz satqınlıqla, antimilli ünsürə çevrilməklə qaytarmağa məcburdur. Beləcə iradəsi zəif, ambisiyası yüksək adamlar sırasından antimilli qüvvə yaratmaq texnologiyası işə düşür. Yaxşı haldır ki, Azərbaycanda milli iradəsi zəif, dövlətimizin maraqlarını satmaq hesabına “yaxşı” yaşamaq kimi rəzil və təhlükəli yola düşmək istəyənlərin sayı azdır, çox azdır. Həyat göstərir ki, milli satqınlıq hesabına qazanılan “yaxşı həyat” heç kimi xalqın nifrətindən xilas etmir və edə bilməz. Xoşbəxt o insandır ki, hansı vəzifədə və statusda olmasından asılı olmayaraq öz xalqına və dövlətinə xidmət edir”.

**Ceyhun Rasimoğlu**



## “Əhali sərəncam və fərmanların nəticəsini görür”

“Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial islahatlarla bağlı cəmiyyətə o qədər geniş paket təqdim edib ki, bunu sadalamaqla bitməz. Çünki ölkə başçısının sosial paketlə bağlı sərəncam və fərmanları həddindən artıq çoxdur”. Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Milli Məclisin Komitə sədri Siyavuş Novruzov deyib.

YAP İcra katibinin müavinin sözlərinə görə, əhalinin böyük əksəriyyəti artıq bu sərəncam və fərmanların nəticəsini görməkdədir: “Bildiyiniz kimi bu yaxınlarda ölkə başçısı “Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında Fərman imzaladı. Təqaüd 2019-cu il aprelin 1-dək kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət alan şəxslərə həmin sosial müavinətin əvəzinə, əmək pensiyası alan və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçulara əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə verilir. Bu fərmanın maddiyyətindən başqa, həm də çox böyük mənəvi üstünlüyü vardır. Beləcə insanlar artıq bilir ki, müharibədə döyüşdüyünə və iştirakına görə təqaüd alır.

Həmçinin bilirsiniz ki, cənab Prezident doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında sərəncam imzalayıb. Eləcə də bu ilin mayın 10-da İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında dövlət başçısı sərəncam imzaladı. Təbii ki, bütün bunlar hamısı Azərbaycan xalqının və cəmiyyətinin rifahı üçün edilir. Hətta deyərdim ki, problemli kreditlərin özü də bir sosial aksiya idi. Bu gün zəlzələdən, eləcə də digər təbii fəlakətlər nəticəsində yaranan problemlərin dövlət tərəfindən aradan qaldırılması, Şamaxıda, Ağsuda yeni evlərin müasir standartlara uyğun şəkildə tikilib istifadəyə verilməsi göz önünədir. Təbii ki, bu proseslər davam olunacaqdır”.

## Hikmət Hacıyev: 25 ildir atəşkəsin davamlı sülhə çevrilə bilməməsinin əsas səbəbi Ermənistanın işğalçılıq siyasətini davam etdirməsidir



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın baş naziri Nikol Paşinyanın atəşkəsin 25 illiyi ilə əlaqədar verdiyi açıqlamanı AZƏRTAC-a şərh edib. Şöbə müdiri bildirib ki, Ermənistan gücdən istifadə edərək Azərbaycan ərazilərini işğal edib. İşğal olunmuş ərazilərdə bir milyondan artıq azərbaycanlı qanlı etnik təmizləməyə məruz qalıb və 25 ildən artıqdır ki, onlar qaçqın və məcburi köçkün statusunda yaşamaq məcburiyyətindədirlər. Ermənistanın Azərbaycana qarşı təcavüzü, həmçinin mülki insanlara qarşı çoxsaylı hərbi cinayətlərlə müşayiət olunub.

Hikmət Hacıyev vurğulayıb ki, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə əlaqədar qəbul etdiyi dörd qətnamədə Ermənistanın Azərbaycana qarşı gücdən istifadə etməsi pislənilir, ölkəmizin ərazi bütövlüyü və suverenliyi, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olması bir daha təsdiqlənir, işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur.

“Atəşkəs sülh deyil. Ermənistan rəhbərliyi tərəfindən də etiraf olunur ki, 25 il keçməsinə baxmayaraq, atəşkəs davamlı sülhə çevrilməyib. Bu müddət ərzində atəşkəsin davamlı sülhə çevrilə bilməməsinin əsas səbəbi Ermənistanın işğalçılıq siyasətini davam etdirməsidir”, - deyə H.Hacıyev əlavə edib.

O, həmçinin deyib ki, danışıqlar prosesinin formatı dəyişməzdir. Danışıqlar münaqişə tərəfləri olan Ermənistan və Azərbaycan arasında aparılır. Şöbə müdiri diqqətə çatdırıb ki, Ermənistan tərəfi regionda davamlı sülhün təmin olunmasını həqiqətən istəyirsə, mövcud format əsasında danışıqlar prosesində konstruktiv şəkildə iştirak etməli, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmalı, azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmalarına mane olmamalıdır. Yalnız bundan sonra regionda davamlı sülh təmin oluna bilər.

## Efraim Sne: “İsrail Azərbaycanın düşməninə bir güllə belə verməyəcək”

“Əgər Ermənistan İsraillə münasibətləri yaxşılaşdırmaq istəyirsə, hesab edirəm ki, bundan imtina etməyəcəyik. Ancaq həmişə yadda saxlamaq lazımdır, İsrail heç vaxt Azərbaycanın düşmənlərinə bir güllə belə kömək etməyəcək. Unutmayın, bir güllə”. SİA-nın İsrailin stmegi.com saytına istinadən verdiyi məlumata görə, bu sözləri İsrailin müdafiə nazirinin keçmiş müavini Efraim Sne deyib. Onun sözlərinə görə, İsrail Ermənistanı Azərbaycana qarşı istifadə edə biləcək heç nə ilə təmin edə bilməz: “Xeyr, yox və yox. Bu bizim mövqeyimizdir. Əminəm ki, hökumətimizdə bunu başa düşməyən və bilməyən kimsə yoxdur, bunun üçün kifayət qədər axmaq olmalısan. İsrail, hətta bir milliqram da Azərbaycanın düşməninə kömək etmir, heç bir şəkildə. Biz müttəfiqik, biz qardaşıq”.

İsrailin müdafiə nazirinin müavini İsrailin Azərbaycana hansı müasir silahları təklif edə biləcəyi ilə bağlı fikirlərə toxunaraq bildirib ki, İsrailin belə məsələləri açıq şəkildə müzakirə etməsi axmaqlıq olardı: “Mən yalnız ikitərəfli münasibətlərdən danışa bilərəm, amma silahlarla bağlı bir söz deyə bilmərəm, bü gizli məsələdir. İkitərəfli münasibətləri yaxşı qiymətləndirirəm. Ancaq daha yaxşı olması gərəkdir. Mədəniyyət və elm sahələrində, müdafiə sahəsi ilə məhdudlaşmamaqla dostluq və əməkdaşlığı genişləndirməliyik. Amma mədəniyyət, elm, akademik araşdırma sahəsində universitet səviyyəsində əlaqələrimizin inkişaf etdirilməsi lazımdır”.

## DSX-nin Qarabağ atları üzərində süvarilər dəstəsinin və rəqs ansamblının təqdim etdiyi şou-kompozisiya Britaniya Kraliçasının marağına səbəb olub



Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının əfsanəvi Kraliçası Viktoriyanın şərəfinə təşkil edilən və bütün dünya atsevərlərinin böyük marağına səbəb olan “Vindzor Kral Atçılıq Şousu”na yekun vurulub. Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Atçılıq Federasiyasının təşkilatçılığı ilə bu tədbirdə iştirak edən Dövlət Sərhəd Xidmətinin Qarabağ atları üzərində süvarilər dəstəsinin və rəqs ansamblının təqdim etdiyi “Azərbaycanın kəlağayısı və Qarabağ atları” adlı şou-kompozisiya Birləşmiş Krallığın taxt-tacının sahibi, Ülyahəzrət II Elizabetin, kral ailəsinin üzvlərinin və digər tamaşaçıların xüsusi marağına səbəb olub.



Şounun aparıcısının təmsilçilərimizin möhtəşəm çıxışından əvvəl etdiyi təqdimatda şou-kompozisiyanın əsas elementlərindən birini təşkil edən, 1500 ildən çox tarixə malik Azərbaycan kəlağayısının hələ iki əsr öncə - 1851-ci ildə Londonda keçirilmiş böyük sərgidə şahzadə Albert tərəfindən öz həyat yoldaşı Kraliça Viktoriyaya hədiyyə olunmasını vurğulaması böyük diqqətlə qarşılanıb.



Qədim Vindzor qəsrinin ərazisində keçirilən bu tədbirdə Azərbaycan nümayəndə heyətinin nümayiş etdirdiyi şou-kompozisiyanı hər gün on minlərlə insan canlı izləyib, televiziya vasitəsilə milyonlarla tamaşaçı ecazkar milli musiqimizin sədaları altında Qarabağ atlarının gözəlliyinə, süvarilərimizin hünər və igidliyinə, rəqqaslarımızın çılğın və hərarətli rəqslərinə heyran olublar.



Böyük Britaniyanın nüfuzlu “Dailymail.co.uk” internet portalı “Vindzor Kral Atçılıq Şousu”na həsr etdiyi reportajında Azərbaycanın Qarabağ atlarının iştirakı ilə nümayiş etdirilən şou-kompozisiyaların Kraliça II Elizabetin ən sevimli tamaşalarından olduğunu xüsusi qeyd edib. Mayın 11-də tədbirdə iştirak edən Ülyahəzrət II Elizabet “Azərbaycanın kəlağayısı və Qarabağ atları” şou-kompozisiyasına tamaşa etdikdən sonra Azərbaycan nümayəndə heyətinin üzvlərini - Azərbaycan Atçılıq Federasiyasının vitse-prezidentləri Sakit Məmmədov, Bəhruz Nəbiyevi və idmançı Xədicə Qulubəylini qəbul edib. Görüşdə Kraliçanın həyat yoldaşı, Edinburq hersoqu şahzadə Filipp, Kraliçanın nəvəsi, Sasseks hersoqu şahzadə Harri və digər rəsmi şəxslər iştirak ediblər. Azərbaycanın Xalq rəssamı Sakit Məmmədovun “Bahar qızı” adlı rəsm əsəri və Azərbaycan kəlağayısı Ülyahəzrət II Elizabetə hədiyyə kimi təqdim olunub. Təqdimat zamanı rəsm əsərində təsvir edilən Bahar qızının Azərbaycanın qədim Novruz bayramının simvollarından biri olması, kəlağayının üzərində təsvir edilmiş xan qızı Natəvan, Qarabağ atları, milli musiqi alətləri, Xarı bülbül bitkisi haqqında geniş məlumat verilib.

Ülyahəzrət II Elizabet Azərbaycan təmsilçilərinin nümayiş etdirdikləri möhtəşəm şou-kompozisiyaya, rəsm əsəri və milli kəlağayının hədiyyə edilməsinə görə dərin minnətdarlığını bildirib.

# Bakıya tuşlanan "İNGİLİS BARMAĞI": Olimpiya stadionundakı final fiti hansı səsləri batıracaq?

***Bakıda mayın 29-da baş tutacaq UEFA Çempionlar Liqası çərçivəsində final oyunu dünyanın idman aləmində böyük həyacanla gözlənilən hadisədir. Bakı Olimpiya stadionunda keçiriləcək final matçnda Böyük Britaniyanın "Arsenal" və "Çelsi" komandaları qarşılaşacaq. Artıq bu idman bayramına hazırlıqlar yekunlaşıb və Bakı mötəbər yarışa ev sahibliyi etməyə tam hazırdır.***






tədbirlərinin təminindən tutmuş, yarışların təşkilatçılığa qədər - nədəsə hansısa problem olubmu? Təbii ki, yox. Hətta iddia edərdim ki, həmin yarışların təşkili Böyük Britaniya da daxil olmaqla bir çox qabaqcıl Avropa ölkələri üçün örnək sayılacaq şəviyyədə baş tutub. Belə olan halda Böyük Britaniya XİN-nin anlaşılmaz və qərəzli müraciətinə nə ad vermək olar? Hesab edirik ki, bu birmənalı şəkildə final öncəsi Bakıya qarşı törədilmiş təxribat cəhdidir. Ölkəmiz is-



Elə bu məqamda isə ortaya gözlənilməz və heç də xoş olmayan mənzərə çıxır. Böyük Britaniya XİN-nin heç bir ehtiyac olmadan, obyektivlikdən uzaq açıqlama ilə çıxış etməsi rəsmi Bakıya qarşı növbəti qərəz nümayişindən başqa heç nə deyil. Bəli, söhbət UEFA Avropa Liqasının 29 mayda Bakıda keçiriləcək final oyunu ərəfəsində Böyük Britaniya Xarici İşlər Nazirliyinin yaydığı Azərbaycana aid səyahət tövsiyələrindən gedir. Öz vətəndaşlarına müraciətlə Bakıya səfər zamanı ehtiyatlı olmağı xatırladan Böyük Britaniya XİN-nin zəifləmiş yaddaşı üçün biz də bəzi xatırlatmalar etmək istədik:

Məsələn, onu ki, Azərbaycanda təhlükəsizlik və sabitliyin tam şəkildə, həm də çoxdan bərqərar olduğunu. Onu ki, Bakı buna qədər də çoxsaylı beynəlxalq idman yarışlarına ev sahibliyi edib və həmin sınaqlardan üzüağ çıxmağı bacarıb. Birinci Avropa oyunları, Dördüncü İslam Həmrəylik Oyunları, illik əsasda keçirilən Formula 1 Azərbaycan Qran Prisi və UEFA Çempionlar Liqası çərçivəsində 2017-ci ildə "Qarabağ" - "Çelsi" futbol oyunları bu sırada ilk yada düşənlərdir.

Məgər, xatırlatdığımız və adını çəkmədiyimiz həmin oyunlar zamanı təhlükəsizlik tər Cənubi Qafqazın, istər müsəlman Şərqinin, istərsə də keçmiş Sovet məkanının ən təhlükəsiz ölkələrindəndir.

Bu qərəzli iddialara ən tutarlı cavab isə mayın 29-da çox yüksək səviyyədə təşkil olunacaq Bakı finalı olacaq. Bütün dünyanın diqqətlə izləyəcəyi tədbirin yüksək səviyyədə baş tutması üçün müvafiq dövlət qurumlarının üzərlərinə düşəcək vəzifələri qüsursuz yerinə yetirəcəyinə əminik. Ona da əminik ki, bu həm də hər bir Azərbaycan vətəndaşının vəzifəsinə çevrilməlidir.

Bakıya tuşlanan məkrli "ingilis barmağı"nı zərərsizləşdirəcəyimizə, ölkəmizin artan beynəlxalq nüfuzuna hər bir vətəndaşımızın da töhfə verəcəyinə inanırıq.

Bakı heç nəyə baxmayaraq mötəbər idman yarışına hazırlaşır. Tamaşaçı dünyadır...Və Azərbaycan növbəti dəfə dünyanı heyran, Böyük Britaniyanı isə sözün bütün mənalarında mat qoyacaq....

Bakıda səsləndirliləcək final fiti təkcə "Arsenal" və "Çelsi" matçının bitməsini bildirməyəcək. Bu həm də Bakı əleyhinə qurulan təbliğat kampaniyasının ifşası olacaq...

**EMİL Məmmədov**

***"Ötənilki "məxməri inqilab" erməni ictimaiyyətində yeni hakimiyyətdə müəyyən gözləntilər yaratdı və bu, tamamilə doğru idi - iki onilliklər boyu biz yoxsulluq və ədalətsizlikdən yorulmuşduq". Bu barədə Ermənistanın "armenianreport" saytı yazır. Qeyd olunur ki, insanlar Paşinyana dəstək göstərmək üçün küçələrə çıxdılar ki, dövlət idarəçiliyi daha effektiv və ədalətli əsaslara söykənsin, nəticədə, həyat səviyyələri keyfiyyətli olsun. Bununla yanaşı, bir çoxları gözləyirdilər ki, pozitiv dəyişikliklər tez və qısa zamanda, maksimum şəkildə həyata keçiriləcək: "Ancaq bir il keçib və demək mümkündür ki, gözləntilər özünü doğrultmayıb".***





# Paşinyanın yalanlarına aldanan erməni xalqı

## Armenianreport: "Gözləntilər özünü doğrultmayıb - "məxməri inqilab N2" gəlir"

### "İlin əvvəlindən əhalinin sayı 3,2 min insan azalıb"

Adıçəkilən sayt yazır ki, bunu sübut edən amillərdən biri də Ermənistan əhalisinin ölkəni kütləvi şəkildə tərk etməsidir: "Milli statistika komitəsinin məlumatlarına əsasən, Ermənistan əhalisinin 1 aprel 2019-cu ilə olan sayı 2018-ci ilin analoji sayı ilə müqayisədə 7,8 min insana qədər azalıb. İlin əvvəlindən isə respublikanın əhalisinin sayı 3,2 min insan azalıb..." Sayt, ölkə əhalisinin sürətlə miqrasiya etdiyini yazır və sual edir ki, Koçaryan-Sarkisyan kriminal-oliqarx rejiminin devrilməsinə, "məxməri inqilab"ın baş tutmasına baxmayaraq, insanlar nəyə görə ölkəni tərk edirlər?

### "Nəticədə, "köhnə" və "yeni" işsizlər çıxış yolu olmadığına görə, ölkəni tərk edib, qastraybarterlərə çevrilirlər"

SİTAT: "Cavab birmənalıdır - inqilabdan sonrakı məyusluğa görə. Axı "məxməri inqilab"dan bir il ötməsinə baxmayaraq, insanların həyatlarında yaxşıya doğru heç nə dəyişilməyib və çətin ki, yaxın vaxtlarda dəyişilsin - bunun üçün heç bir ön şərt də yoxdur. Hətta ən uzağı, olsa belə. Halbuki Paşinyanı və onun tərəfdarlarını dinləyərkən, artıq Ermənistanda iqtisadi inqilabın baş tutduğunu eşidərsən ki, həmin iddialarda ölkənin postsovet məkanında ən qabaqcıl iqtisadi ölkələrindən birinə çevriləcəyi iddiaları səslənir. Ola bilsin ki, baş nazirin rezidentliyindən hər hansı "pozitiv" dəyişikliklər görünə bilsin, lakin biz, sıravi vətəndaşlar onları hiss etmirik. Axı haradan hiss edək ki, ölkədə işsizlərin sayı nəinki azalmayıb, əksinə, hökumətin düşünülməmiş fəaliyyəti səbəbindən artıb. Nəticədə, "köhnə" və "yeni" işsizlər, çıxış yolu olmadığına görə, ölkəni tərk edib, qastraybarterlərə çevrilirlər".

### "Ermənistanın xarici borcu 7 milyard dollara qədər artacaq"

Sayt, yeni iş yerlərinin açılması barədə danışmağın yeri olmadığını və xarici investisiyaların hesabına işsizliyin aradan qaldırıla bilinməyəcəyini də yazır: "Hətta işinə yeni başlayan iqtisadçı belə anlayır ki, iqtisadiyyatın artımı birbaşa sərmayələrdən asılıdır ki, nəticədə, yeni iş yerləri də açılır. Bəs sərmayələrin iqtisadiyyatdan asılılığı nədən ibarət ola bilər? Hakimiyyətin stabil və invenstisiya mühitinin əlverişli olmasından. Ancaq nə bu, nə də digər məsələlərin Ermənistanda müşahidə olunmadığını deyə bilərik. Bunun yerinə biz Paşinyanın bir nöqtədən digər nöqtəyə atlandığını görürük. Ölkənin xarici borclarının bağlanması yerinə, hökumət 2019-cu ildə 490 milyon dollar həcmində xarici kredit almağa hazırlaşır və nəticədə, Ermənistanın xarici borcu 7 milyard dollara qədər artacaq. Bəs Paşinyan, ya da onu dəyişəcək şəxs bütün bunları nə ilə ödəyəcək? Koçaryan və Sarkisyanın etdiyi kimi, strateji sferalara və iqtisadiyyata aid olan müəssisələrləmi? Artıq onlar da çoxdan Rusiyanın mülkiyyətindədirlər".

### "Paşinyanın vaxtı, praktiki olaraq, qalmayıb - o, ya ölkədəki həyat səviyyəsini yaxşılaşdırır, ya da "məxməri inqilab N2"-nin baş verməsi gözlənilə bilər"

"Rəsmi, lakin heç də dolğun görünməyən statistikaya görə, bu il ərzində, 11 min insan artıq Ermənistanı tərk edib. Bu, 11 min ermənidir ki, Paşinyanın siyasətindən məyus olub və həyatlarının yaxşılaşması ümidi ilə yaşayırdı. İnanıram ki, gedənlərin sayı reallıqda daha çoxdur və onların sayı əgər hökumət ekstra ölçülər götürməsə və vəziyyətin düzəlməsinə cəhd göstərməsə, daha da artacaq" deyə yazılan analitik yazıda bildirilir ki, Paşinyan bir məsələni də unutmamalıdır: "Paşinyan bir halı unutmamalıdır ki, onun hər bir hesabı sona qədər məhv edilməmiş və hakimiyyətlərini bərpa etmək istəyində olan Koçaryan-Sarkisyan şəxsindəki kontra tərəfindən analiz edilir".

"Armenianreport" qeyd edir ki, ölkədə az insan tapılar ki, onlar öncəki hakimiyyətin geri qayıtmasını arzulayır: "Fəqət, indiki kimi yaşamağı da kimsə istəmir. Ona görə də, Paşinyanın vaxtı, praktiki olaraq, qalmayıb - o, ya ölkədəki həyat səviyyəsini yaxşılaşdırır, ya da "məxməri inqilab N2"-nin baş verməsi gözlənilə bilər. Üçüncü variant da var - xalq Ermənistanı tərk etməkdə davam edəcək və hazırkı mənfi miqrasiya saldosu nəticəsində, yalnız indiki kimi kəndlər deyil, artıq şəhərlər də boşalacaq. Bu isə, artıq birbaşa ölkəmizin milli təhlükəsizliyinə olan ən böyük təhlükədir".

**Rövşən NURƏDDİNOĞLU**

# Avropaya ixracat: elektrik enerjisi sahəsində tarixi dönüş

***Mayın 1-dən etibarən "Azərenerji" ASC Yunanıstan, Rumıniya və Macarıstana elektrik enerjisinin ixracına başlayıb. Bir qədər sonra ixracatın məkanı daha da genişlənərək uzaq Avstriyanı belə əhatə edəcək. Sözsüz ki, müstəqilliyini əldə etmiş gənc ölkə üçün bu, ciddi uğurdur. Keçən əsrin 90-cı illərində elektrik enerjisi istehsalı və ötürülməsində bir sıra problemlər yaşayan bir ölkənin indi Avropanın inkişaf etmiş dövlətlərinə elektrik enerjisi verməsi, əlbəttə, xüsusi diqqətə layiq haldır. Bu, hər şeydən öncə, Azərbaycan rəhbərliyinin ölkədə islahatları sistemli, ardıcıl və düşünülmüş şəkildə aparmasının göstəricisidir.***

O da şübhə doğurmur ki, ölkə rəhbərliyi həmin istiqamətdə yeni addımlar atacaq. Azərbaycan daha sıx surətdə Avropa ölkələri ilə əməkdaşlıq edəcək. Bunlarla yanaşı, təhlükəsizliyin təminində əhəmiyyətli addımların atıldığını da vurğulamaq lazımdır. Geniş mənada söhbət, ümumiyyətlə, Azərbaycanın milli təhlükəsizliyinin təminindən və dünyanın ən çox inkişaf etmiş məkanına inteqrasiyasından gedir. Bu məsələlərin prizmasından həm də ölkənin ərazi bütövlüyünün bərpa edilməsi üçün yeni imkanların yaranmasını vurğulamaq gərəkdir. Yəni məsələnin geosiyasi konteksti də əhəmiyyətlidir. Bütün bunların fonunda "Azərenerji"nin Avropa ölkələrinə elektrik enerjisi ixrac etməsinin geosiyasi təhlili aktuallıq kəsb edir. Bu məsələ üzərində geniş dayanmağa ehtiyac gördük.




## Enerji siyasətinin vacib aspekti: elektrik enerjisi istehsalı və yeni infrastruktur

Müasir dünyada enerji faktoru ən yaxın ölkələri belə bir-birindən ayıra, ən uzaqları isə birləşdirə bilir. Böyük dövlətlərin mübarizəsi də əsasən enerji və enerjidaşıyıcıları ilə bağlıdır. Belə bir inam vardır: kim daha çox enerji ehtiyatlarına sahib olacaqsa, o qədər də söz sahibi olacaq. Siyasi aspektdə isə enerji siyasəti milli təhlükəsizliyin tərkib hissəsi kimi götürülür. Bu tezisin arxasında çox vacib faktorlar dayanır. Təcrübə göstərir ki, enerji təhlükəsizliyinin milli təhlükəsizliyin tərkib hissəsi olması, ümumiyyətlə, dünyada baş verən dəyişikliklərə sıx bağlıdır.

Məsələ ondan ibarətdir ki, enerji amili XXI əsrdə təbii mahiyyəti və təyinatı ilə yanaşı, sosial, siyasi və geosiyasi-hərbi məzmun da kəsb etməyə başlayıb. Daha sürətlə inkişaf etmək və suveren olmaq üçün lazımi səviyyədə enerjiyə malik olmalısan. Məsələn, Çin iqtisadiyyatının sürətli inkişafı üçün daha çox enerji sərf etməsi lazım idi. Bu səbəbdən ölkənin enerji ilə təmini birbaşa milli təhlükəsizliklə sıx bağlıdır. Təsadüfi deyil ki, Amerika Çini ilk öncə enerji sahəsində "vurmağa" çalışır.

Böyüyən Türkiyə və Avropa bazarı üçün də enerjiyə ehtiyac sürətlə artır. Həmin ölkələrin təhlükəsizliyi və suverenliyi enerji ilə nə dərəcədə təmin olunmaları faktorundan çox asılıdır. Şübhəsiz ki, yuxarıda vurğulanan məqamların Azərbaycan kimi gənc müstəqil ölkələrə də birbaşa aidiyyəti var. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, enerji təhlükəsizliyi milli təhlükəsizliyin tərkib hissəsidir və ölkə rəhbərliyi məsələnin bu aspektinə ciddi diqqət yetirir. Həyata keçirilən hər bir enerji layihəsinin son təyinatı məhz milli təhlükəsizliyə xidmət edir.

Bu baxımdan neft-qaz layihələrinin reallaşması Azərbaycanın həm daxili inkişafına, həm də dünyaya inteqrasiyasına əhəmiyyətli dərəcədə yardım edir. Bu məsələnin müxtəlif aspektləri haqqında dünyanın böyük dövlətlərinin liderləri, tanınmış analitik və ekspertlər kifayət qədər fikir bildiriblər. Azərbaycan iqtisadiyyat, energetika, nəqliyyat sferalarında Avropa ilə getdikcə daha sıx əməkdaşlıq qurur. Müxtəlif qlobal layihələrdə Bakının aktiv iştirakı bu prosesə xüsusi məzmun verir. Neft, qaz və yüklərin daşınması ilə əlaqəli olan müxtəlif proyektlərin uğurlu olaraq həyata keçirilməsi ölkənin geosiyasi nüfuzunu da yüksəldir. Bütün bunlara elektrik enerjisinin ixracını da əlavə etmək tam yerinə düşərdi.

Elektrik enerjisinin istehsalı məsələsi xüsusi infrastruktur sisteminin formalaşdırılmasını tələb edir. SSRİ dağılandan sonra demək olar ki, bütün respublikalarda bu problem kəskinliklə qarşıda dayandı. Azərbaycanda da müəyyən çətinliklər yarandı. Hətta 90-cı illərdə elektrik enerjisi ilə təminatda ciddi problemlər özünü göstərdi. Ancaq Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra digərləri ilə yanaşı bu istiqamətdə sistemli və ardıcıl layihələr həyata keçirilməyə başlandı. Ardıcıl aparılan işlər yeni elektrik enerji infrastrukturu formalaşdırmağa imkan yaratdı. Azərbaycan Rusiya və İranla elektrik enerjisi mübadiləsini davamlı hala gətirdi. Buraya Gürcüstan da daxil edildi. Bir neçə il öncə Gürcüstanda kəskin olaraq elektrik enerjisi böhranı yaranarkən da Azərbaycan yardım əlini uzatdı. Qonşu ölkəni məhv olmaqdan sözün həqiqi mənasında Azərbaycan qurtardı.

## Növbəti mərhələ: Avropaya ixracatın verəcəyi töhfələr

Lakin Azərbaycanın bu sahədə apardığı islahatlar daha böyük proqramların reallaşmasını tələb edirdi. O cümlədən elektrik enerjisi istehsalının və istifadəsinin milli inkişaf və təhlükəsizliyə daha çox töhfə verməsi lazım idi. Təcrübə bu məsələdə də Azərbaycanın uğurlu yol tutduğunu sübut etdi. "Azərenerji" ASC bu yaxınlarda maraqlı bir informasiya yaydı. Azərbaycan Yunanıstana, Rumıniyaya və Macarıstana elektrik enerjisi ixrac etməyə başlayıb! Bu, enerjinin Gürcüstan, Türkiyə və Bolqarıstan vasitəsilə ötürülməsi sayəsində baş tutub. Sonrakı mərhələdə isə Avstriya və İtaliyaya "Azərenerji" elektrik verməlidir. Bununla da "Azərenerji" beynəlxalq miqyaslı əməkdaşlıq infrastrukturu yaratmış olur. Nəzərə almaq lazımdır ki, bir neçə ildir, Azərbaycan region dövlətlərinə - Rusiya, İran, Gürcüstana və eyni zamanda, Türkiyəyə elektrik enerjisi ixrac edir. Yəni söhbət artıq sadəcə enerji mübadiləsindən getmir, ixrac faktoru ortadadır!

Bu sistemə indi Avropa da daxil olur. Bu o deməkdir ki, Azərbaycan artıq Asiya və Avropanı birləşdirən enerji infrastrukturunun çox əhəmiyyətli bir məkanına çevrilib. Həmin hadisə üç aspektdən milli dövlətçilik baxımından əhəmiyyət daşıyır. İlk növbədə, ölkə rəhbərliyinin həyata keçirdiyi enerji siyasətinin çox səmərəli olmasını vurğulamaq gərəkdir. Prezident İlham Əliyevin elektrik enerjisi sahəsində həyata keçirdiyi islahatlar, istifadəyə verilən obyektlər, infrastrukturun müasir tələblər əsasında yenidən qurulması öz müsbət nəticələrini verir. Dövlət başçısı məlum Mingəçevir hadisəsinə çox həssas yanaşmaqla və həmin sferada lazımi tədbirlər görməklə prosesləri daha səmərəli müstəviyə keçirdi. "Azərenerji"-də çalışan vətənpərvər və peşəkar kadrların da dövlət başçısının tapşırıqlarına ciddi əməl etməsi sayəsində təşkilat Avropa bazarına çıxa bildi.

İkincisi, dövlət başçısı neft və qaz sahəsi ilə bağlı olan layihələri uğurla elektrik enerjisi istehsalı və bu sahədə infrastrukturun yeniləşdirilməsi prosesi ilə yüksək dərəcədə uyğunlaşdıra bildi. Məsələnin bu tərəfi asan həll edilən deyil. Neft və qaz sahəsində Azərbaycanın həm zəngin təcrübəsi var, həm də bu layihələr beynəlxalq miqyasda daha çox dəstəklənir. Digər tərəfdən, "Yeni İpək Yolu" kimi layihələr çərçivəsində müxtəlif növ yükdaşımaları mexanizmlərinin inkişaf etdirilməsi lazım gəlir.

Bütün bunların fonunda elektrik enerjisinin həm istehsalı, həm də uzaq məsafələrə ötürülməsi mexanizmlərinin işlənib hazırlanması xüsusi fəaliyyət tələb edir. Bu baxımdan konkret olaraq elektrik enerjisi sferasında həyata keçirilən proqramları birbaşa enerji təhlükəsizliyi və milli təhlükəsizliyin ayrılmaz bir aspekti olaraq qəbul etmək gərəkdir.

Üçüncüsü, "Azərenerji" ASC bütövlükdə Azərbaycanın enerji siyasətinin reallaşmasında vacib bir struktur kimi özünü təsdiqləməkdədir. Bu təşkilatın dövlətçiliyin strateji maraqları üçün daha çox fəallıq göstərməsi təbii ki, tələbatdır. Bu istiqamətdə dövlət başçısının həyata keçirdiyi proqramların tam və tələb olunan səviyyədə yerinə yetirilməsi zərurətdir. Belə görünür ki, "Azərenerji" məhz həmin kontekstdə fəaliyyətini gücləndirməkdədir.

Bütün bunların, əlbəttə, Azərbaycanın geosiyasi nüfuzunun daha da yüksəlməsinə və beynəlxalq tərəfdaş kimi daha çox etibar qazanmasına təsiri danılmazdır. Avropa ölkələri enerjinin bir qismini Azərbaycandan alırsa, onlar arasında əməkdaşlığın daha sıx olması üçün əlavə imkanlar meydana gəlir. Təsəvvür edək ki, neft və qaz sahəsində Avropanın təhlükəsizliyində Azərbaycanın rolu getdikcə daha da artır. Bu prosesi elektrik enerjisi sferasında əməkdaşlıq tamamlayır. Deməli, faktiki olaraq, Azərbaycan dünyanın ən inkişaf etmiş məkanı ilə qarşılıqlı faydalı əməkdaşlıq prosesini yeni səviyyəyə yüksəldib. Dünyanın enerji və maliyyə böhranı içində olduğu bir mərhələ üçün bunun əhəmiyyətini anlamaq çətin deyildir.

Beləliklə, elektrik enerjisinin Avropa ölkələrinə ixrac edilməsi yalnız iqtisadi-energetik məzmunu olan hadisə deyil. Bunun geosiyasət və təhlükəsizliklə bağlı məzmun çaları da vardır. Belə ki, Azərbaycan rəhbərliyi bütün sahələrdə islahatları dərinləşdirir və genişləndirir. Həyata keçirilən proqramların hər biri buna xidmət edir. Bununla Azərbaycan Cənubi Qafqazın lider dövləti olaraq, getdikcə daha çox sahələrdə dünyanın müxtəlif regionları ilə infrastruktur bağlantıları qurur. Bu, gənc müstəqil dövlət üçün nəhəng proqramdır. Bunun qarşısını kimsənin alması da mümkün deyildir.

Deməli, dünya Azərbaycanı getdikcə daha yaxşı duymağa və hiss etməyə məhkumdur. Bu gedişatın Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə də yardımçı olacağına şübhə yoxdur. Strateji olaraq bu gün Avropa ölkələrinə ixrac edilən elektrik enerjisi, bütün istiqamətlərdə Azərbaycan dövlətçiliyinin inkişafına və ərazi bütövlüyünün təmin edilməsinə xidmət edəcək. Artıq bu proses başlayıb!

***Newtimes.az***

# Radikal qrupların mövcudluğu xaricdəki mərkəzlərin dəstəyi ilə bağlıdır

## YAP-ın Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, Milli Məclisin deputatı Aydın Mirzəzadənin yap.org.az-a müsahibəsi

***-Aydın müəllim, son zamanlar ölkəmizə qarşı xaricdəki antiazərbaycançı mərkəzlər tərəfindən qarayaxma kampaniyası aparılır. Sizcə, bunun kökündə hansı amillər dayanır?***

- Azərbaycan müstəqillik qazandıqdan sonra müəyyən xarici qüvvələr ölkəmizin müstəqil daxili və xarici siyasət həyata keçirməsinin qarşısını almağa, Azərbaycanın təbii sərvətlərinə kənardan nəzarət təşkil etməyə çalışıblar. Bu qüvvələr daxili siyasətimizə qarışmağa cəhd göstəriblər. Amma vaxtilə Ümummilli liderimiz Heydər Əliyev, bu gün isə Prezidentimiz İlham Əliyev onların planlarını darmadağın edib.

Amma buna baxmayaraq, xaricdən ölkəmizə qasrşı qarayaxma kampaniyası vaxtaşırı olaraq aparılır. Bu proses bu gün də davam edir. Məsələnin kökündə isə beynəlxalq aləmdə Azərbaycan haqqında mənfi fikir yaratmaq, ölkəmizi iştirakçısı olduğu mühüm beynəlxalq layihələrdən təcrid etmək, ən əsası isə qazanılan uğurlara kolgə salmaq dayanır.

Bilirsiniz ki, bu ilin əvvəlindən dövlət başçısının qərarları ilə Azərbaycanda sosial sahədə inqilabi addımlar atılır. Əhalinin rihafının daha da yüksəldilməsi istiqamətində bir çox sosial proqramlar həyata keçirilir. Belə ki, əməkhaqları, pensiyalar, sosial müavinətlər artırılır, şəhid ailələrinə, əlillərə, məcburi köçkünlərə və bütün həssas qruplara göstərilən diqqət daha da gücləndirilir. Bütün bu addımlar təxminən 3 milyon insanı əhatə edir.

Əslində, Azərbaycanın bu müsbət təcrübəsi digər ölkələr üçün nümunə olmalı və bizim təcrübəmiz xaricdə təbliğ edilməlidir. Dünya pratikasında



da belədir ki, ayrı-ayrı ölkələrin müxtəlif sahələrdə olan müsbət təcrübəsi öyrənilir, təbliğ və tətbiq olunur. Amma antiazərbaycançı mərkəzlər Azərbaycan haqqında xaricdə müsbət imicin yayılmasına maneçilik törətməyə çalışırlar. Son dövrlərdə isə onların fəallaşması ilk növbədə Azərbaycanda keçirilməsi gözlənilən bir sıra beynəlxalq tədbirlərlə bağlıdır. Bu mənada nüfuzlu idman yarışlarının ölkəmizdə keçirilməsi də ictimai həyatımızın tərkib hissəsinə çevrilib.

Eləcə də, bu ilin payızında Azərbaycanda Qoşulmama Hərakatının sammiti keçiriləcək. Təxminən 120 ölkənin dövlət və hökumət başçısının sammitdə iştirak etməsi, ölkəmizin bir neçə il bu mötəbər təşkilata sədrlik etməsi mühüm hadisədir. Təbii ki, ölkəmizin qazandığı nüfuz xaricdəki bəzi siyasi və iqtisadi dairələri narahat edir. Onlar Azərbaycanı bəzi müsəlman ölkələri kimi daxili konfliktlərdən əziyyət çəkən, öz təbii sərvətlərinə nəzarətdən kənarda qalan, inkişafın hər hansı formasından məhrum olan ölkə kimi görmək istəyirlər. Bu baş vermədikdə isə onu dünyada mənfi imicdə tanıtmağa cəhd edirlər.

***-Bu kampaniyada xaricdə yaşayan bir qrup azərbaycanlı da iştirak edir...***

-Xaricdəki bəlli dairələr məqsədlərinə çatmaq üçün müxtəlif çirkin medotlardan, o cümlədən xaricdə yaşayan bəzi mühacir azərbaycanlılardan da istifadə etməyə çalışırlar. Ancaq praktika göstərir ki, onların səyləri əbəsdir. Birincisi, onları ölkəmizin daxilində dəstəkləmirlər, ikincisi isə beynəlxalq aləm kiminsə Azərbaycan haqqında çirkin fikirləri ilə deyil, real vəziyyətlə daha çox maraqlanırlar. Bu gün Azərbaycanın dünyada sülhün möhkəmlənməsinə verdiyi töhfə, həyata keçirdiyi qlobal layihələrdə başqa dövlətlərlə fəal əməkdaşlıq etməsi, onların da fayda qazanması dünyanın gördüyü və qiymət verdiyi məsələlərdəndir. Buna görə də, növbəti anti-Azərbaycan kampaniyasının da heç bir nəticəsi ola bilməz.

***-Məlumdur ki, bu kampaniyada ölkə daxilindəki radikal qruplar, o cümlədən AXCP sədri Əli Kərimli və onun ətrafı da "fəal" iştirak edirlər. Sizcə, bu qrupların əməlləri müxalifətçilikdən daha çox satqınlıq deyilmi?***

- Əlbəttə ki, bu gün antiazərbaycançı qüvvələrə dəstək verən daxildəki qruplar üçün əsas Azərbaycanın deyil, tapşırıq aldıqları dairələrin maraqlarıdır. Onlar fəaliyyətlərində tapşırıq aldıqları dairələrin dəstəyini qazanmağı əsas götürürlər. Radikal qruplar maddi və siyasi dəstəyi ordan alırlar və mövcudluqları xaricdəki həmin mərkəzlərin dəstəyi ilə bağlıdır. Bunun isə bir adı var: milli satqınçılıq və öz xalqına və dövlətinə qarşı "səlib yürüşündə" ön sıralarda getmək. Və bu fəaliyyətin demokratiya, siyasət və müxalifətçiliklə heç bir əlaqəsi yoxdur.

## "Britaniya XİN-in bəyanatının heç bir məntiqi əsası yoxdur"



"Böyük Britaniya Xarici İşlər Nazirliyinin mayın 29-da Bakıda keçiriləcək UEFA finalı ilə bağlı "tövsiyə" xarakterli bəyanatı heç bir halda başadüşülən və qəbul olunan deyil. Çünki deyilən iddiaların heç bir məntiqi əsası yoxdur". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Eldəniz Səlimov deyib. İddialara cavab olaraq Azərbaycan XİN-i tərəfindən səslənən bəyanatların çox tutarlı və yerində olan bir bəyanat olduğunu deyən deputat hesab edir ki, Rəsmi Bakı tərəfindən açıqlanan bəyanat ünvanına çatacaq və onları yanlış yoldan, zərərli düşüncələrdən uzaqlaşdıracaq.

E.Səlimov bildirib ki, Azərbaycan bu gün dünyanın bütün məsələlərdə tolerantlıq mərkəzi, dialoq məkanıdır: "Azərbaycan nəinki Cənubi Qafqazın, bütövlükdə bu bölgənin, regionun sabitlik və təhlükəsizlik adasıdır. Azərbaycan bu günə kimi dünyanın ən nüfuzlu siyasi, iqtisadi, hərbi, humanitar toplantılarına və idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib və zaman-zaman keçiriləcək tədbirlər ərəfəsindəbu cür haqsız iddialar ortaya atılıb. Hesab edirəm ki, mayın 29-da da Bakıda "Arsenal"-"Çelsi" qarşılaşması yüksək səviyyədə baş tutacaq və həm ölkəmiz, həm Avropa, həm də bütün dünya azarkeşləri gözəl bir final qarşılaşmasını seyr edərək, mənəvi zövq, ləzzət alacaq".

## "Məcburi köçkünlərin öz evlərinə qayıtmasına əngəl törədilməməlidir"



"Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyanın yerli tert.am portalına verdiyi müsahibəsindən aydın olur ki, onun başlıca hədəfi erməni ictimaiyyətidir. Müsahibədə uzun-uzadı demokratik tendensiyalardan danışan xarici işlər naziri görünür ki, Ermənistanın təcüvüzkar və işğalçı siyasətini məhz "demokratiya" pərdəsi ilə ört-basdır etmək istəyir". Bunu SİA-ya Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri Leyla Abdullayeva deyib.

XİN rəsmisinin sözlərinə görə, Azərbaycanın ərazilərinin işğal edən, bu ərazilərdə yerli azərbaycanlıların etnik təmizləməsini həyata keçirən, beynəlxalq hüququn norma və prinsiplərini tapdalayaraq, BMT Nizamnaməsini və ATƏT-in Helsinki Yekun Aktını, BMT TŞ-nin qətnamələrini rədd edən Ermənistan rəsmisinin "demokratik sistem və qaydalardan" bəhs etməsi gülünc olduğu qədər saxtadır: "Z.Mnatsakanyanın münaqişənin həlli ilə bağlı söylədikləri, Ermənistanın onilllərdir davam edən təcavüz və işğal siyasətinə son qoymaq, beynəlxalq hüquq prinsiplərinə, ilk növbədə isə dövlətlərin beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə hörmət nümayiş etdirərək normal qonşuluq münasibətləri qurmaq niyyətindən uzaq olduğunu göstərir. Əgər Ermənistan xarici işlər naziri həqiqi demokratiya quruculuğu, xalqının rifahı və bölgənin təhlükəsizliyi və tərəqqisində maraqlıdırsa, o zaman Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal çıxarılmalı və bu ərazilərdən didərgin salınmış məcburi köçkünlərin öz evlərinə qayıtmasına əngəl törədilməməlidir. Yalnız bundan sonra ümumbəşəri dəyərlərdən, demokratiyadan və insan həyatına verilən önəmdən danışmaq olar".

## Küveyt KİV-ləri Ulu Öndərin anadan olmasının 96-cı ildönümü münasibətilə bu ölkədə keçirilən anım mərasimini geniş işıqlandırıb



Küveytin geniş oxucu auditoriyasına malik "Əl-Cəridə", "Əl-Nahar", "Əl-Ənbə" qəzetlərində və "Dasmannews" elektron nəşrində ümummilli lider Heydər Əliyevin 96-cı ildönümü münasibətilə bu ölkədə keçirilən anım mərasimi ilə bağlı geniş məqalələr dərc edilib.

Azərbaycanın Küveytdəki səfirliyindən AZƏRTAC-a bildirilib ki, həmin qəzetlərdə yayılan məqalələrdə səfir Elxan Qəhrəmanın Ulu Öndərlə bağlı fikirlərinə istinad edilib.

Yazılarda vurğulanıb ki, dahi şəxsiyyət, müstəqil Azərbaycanın qurucusu və memarı ulu öndər Heydər Əliyev xalqımız qarşısında misilsiz xidmətlər göstərib. Qeyd olunub ki, Ümummilli Liderin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycana sədaqətlə xidmət edib, müdrik və uzaqgörən fəaliyyəti ilə xalqımızın yaddaşında əbədi iz buraxıb.

Məqalələrdə, həmçinin Küveyt-Azərbaycan münasibətləri yüksək qiymətləndirilib, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin hər iki xalqın milli maraqlarına uyğun olaraq inkişaf etdiyi vurğulanıb.

## "Azərbaycana qarşı yenə də çirkin kampaniya başlayıb"



"Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Azərbaycan dövləti dünya üçün əhəmiyyətli olan meqa layihələr həyata keçirmək, təşəbbüslər irəli sürməklə yanaşı, bir sıra mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməklə dünyada nüfuzunu yüksəldir. Lakin çox təəssüf ki, ölkəmizin uğurlarına kölgə salmağa çalışan ənənəvi anti-Azərbaycan qüvvələri növbəti öz çirkin kampaniyalarına başlayaraq, ölkəmizlə bağlı əsassız fikirlər irəli sürməkdədirlər". Bu fikirləri SİA-ya açıqlamasında "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.

O bildirib ki, Azərbaycanı sevməyən qüvvələr artıq illərdir ki ölkəmiz üçün ən vacib məqamlarda haqsız ədalətsiz mövqe sərgiləməkdən çəkinmirlər. Onun sözlərinə görə, bəzi qüvvələr hətta Azərbaycanda ən mühüm proseslərdən biri olan seçki zamanı belə öz daxillərindəki qərəzlərini ortaya qoyublar: "Azərbaycanı sevməyən qüvvələr bu dəfə də mayın 29-da Bakıda UEFA çempionatının finalının keçirilməsi ətrafında çirkin kampaniya aparmağa çalışır, idmana aidiyyatı olmayan subyektiv, reallıqdan uzaq olan fikirlər irəli sürürlər. Azərbaycan xalqı bu cür hallara öyrəşib və bilir ki, həmin qüvvələrinin məqsədi ölkəmizi gözdən salmaqdır. 2012-ci ildə Avroviziya, 2015-ci ildə I Avropa Oyunları, 2017-ci ildə İslam Həmrəylik Oyunları zamanı da Azərbaycan əsasız şəkildə ittihamlarla qarşılaşıb. Lakin Azərbaycan bütün məsələləri yüksək səviyyədə təşkil etməyə hazır olduğunu dəfələrlə əməli ilə sübut edib".

Siyasi ekspert qeyd edib ki, Azərbaycanın indiyədək keçirdiyi mühüm beynəlxalq tədbirlərin heç birində problem baş verməyib və ölkəmiz sabitlik, cinayətkarlığın səviyyəsinə görə dünyada əlverişli ölkələr sırasında durur: "Bu baxımdan İngiltərənin "Arsenal" klubunun oyunçusu, erməni əsilli idmançının təhlükəsizliyi ilə bağlı səslənən fikirlərin əsası yoxdur. Çünki indiyədək ölkəmizdə keçirilən bir sıra beynəlxalq yarışlarda erməni əsilli idmançılar iştirak edib və heç bir problem, insident baş verməyib".

Sözügedən mötəbər yarışın finalının Azərbaycanda keçirilməsinin ilk növbədə azarkeşlər tərəfindən səbirsizliklə gözlənildiyini deyən B.Quliyev vurğulayıb ki, bununla yanaşı dünyanın diqqətinin Azərbaycana yönəldilməsi hər birimiz üçün qürurvericidir: "Bu yarış özü ilə təkcə maddi deyil, mənəvi dividentlər də gətirəcək. Çünki futbol idman yarışı olmaqla bərabər, həm də siyasətdir. İdman yarışları ölkəmizin dünyada tanınmasında mühüm rola malikdir".

***Nailə Məhərrəmova***

GƏNCLİYİN SƏSİ

# Qloballaşan cəmiyyətimizdə multikultural milli-mənəvi dəyərlərin təbliği

***Hər bir xalqın sahib olduğu ən dəyərli miras onun milli-mənəvi dəyərləridir. Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemi kifayət qədər zəngindir və xalq onu yüksək tutaraq, daim nəsildən-nəsilə ötürür. Çünki bu mənəvi xəzinə milli şüurun, milli ruhun və tarixin yaddaşıdır. Sevindirici haldır ki, Azərbaycan xalqı milli-mənəvi dəyərlərə sadiqdir, dünyada gedən qloballaşma prosesində özünəməxsus mədəniyyətini qoruyur. Şübhəsiz ki, hər bir xalqın mədəniyyəti başqa mədəni dəyərlərdən bəhrələnməlidir, əks-halda, o inkişaf prosesindən geri qala bilər. Mənəvi dəyərlərin meydana gəlməsi bəşər övladının öz yaşam kriteriyalarının və canlı aləmlə qarşılıqlı münasibətləri zəminində əxlaqi kodekslərin bərqərar olunması zərurəti ilə şərtlənib. İlkin dövrlərdə dinlər cəmiyyətin həyatını nizama salıb, qayda-qanunları təsbit edib, əxlaqi kriteriyaların bərqərar olunmasını təmin edib.***



*Günel Məmmədova, Yeni Azərbaycan Partiyası Gənclər Birliyi ofisinin koordinatoru*

Sonralar milli mədəniyyətlər formalaşıb və dünya bu sahədə zənginliklər qazanıb. Lakin etiraf etməliyik ki, sonrakı dövrlərdə dinin kontekstdən çıxarılması nəticəsində onun elmi-texniki inkişafa qarşı çıxması, elmi, təhsili, mədəniyyəti və incəsənəti yalnız dini ehkamlar çərçivəsində görmə cəhdləri bir çox cəmiyyətlərin inkişafına mane olub.

Müasir dünyaya nəzər yetirsək, milli və mənəvi dəyərlərin qarşılıqlı inteqrasiyası əvəzinə, onların süni yaradılmış qarşıdurması çoxlu problemlər yaradıb. Təəssüf ki, XXI əsrdə də inkişaf etmiş dünya din və məzhəb qarşıdurmalarının, etnik toqquşmaların, faşizm meyillərinin şahididir. Yaxın və Orta Şərqdə dinin siyasiləşməsi prosesləri, konfessional təəssübkeşlik, etnik qarşıdurma və terror aktları, müxtəlif etnik qrupların və fərqli din mənsublarının birgə yaşadığı ölkələrdə bəzi Qərb dairələri tərəfindən qızışdırılan vətəndaş müharibələri davamlı xarakter alıb. Bəzi cəmiyyətlərdə (Yaponiya, Şimali Amerika, Avropa, Rusiya, Çin və s.) dinin cəmiyyətin həyatında yerinin dəqiq müəyyən edilməsi həmin cəmiyyətlərdə ümumbəşəri dəyərləri, insan haqlarını, texniki və elmi inkişafı təmin edə bilib. Bəzilərində (Əfqanısan, İraq, Misir, Liviya, Pakistan və s). isə əksinə olub. Beləliklə, dünyanın hazırkı reallıqlarından yanaşsaq, dinin mahiyyəti kimi rolu da fərqli istiqamətə yönəldilib.

Müasir dövrdə dünya birliyi yeni çağırışlar və təhdidlər qarşısındadır. Qloballaşma prosesinin təsiri altında, hətta dünyanın ən ucqar nöqtələrində baş verən hadisələr belə planetar prizmadan mühüm əhəmiyyət kəsb edir. Günümüzdə, dünyanın harasında baş verməsindən asılı olmayaraq, etnik separatizm, dini ayrıseçkilik, radikalizm, terrorizm və digər bu kimi trendlərin xüsusiyyətləri yerli çərçivəni çoxdan aşmışdır. Ən qorxulusu isə odur ki, baş verənlərə ədalətli yanaşma olmadıqda və ya proseslərin tənzimlənməsində beynəlxalq hüququn norma və prinsipləri nəzərə alınmadıqda, bəşəriyyətimizin qarşısında dayanan təhdidlər daha da mürəkkəb xarakter alır və müxtəlif radikal meyillərin güclənməsinə səbəb olur.

Yeni minillikdə qlobal müstəvidə ən mühüm çağırışlardan biri kimi fərqliliklərin - fərqli sivilizasiyaların, mədəniyyətlərin, dinlərin, hətta xalqların birgəyaşayış fəlsəfəsi ilə bağlı baş verən dəyişiklikləri və miqrasiya proseslərinin təsirini fərqləndirmək olar. Çünki İkinci Dünya müharibəsindən sonra Qərbin artmaqda olan dominant mövqeyi cəmiyyətin həyatında "birgəyaşayış və miqrasiya" nisbətini müəyyənləşdirmişdir. Bu model Qərb ölkələrinin ucuz işçi qüvvəsini, mexaniki olaraq qəbul etməsi və yeni gələnlərin vahid, heç bir milli-mədəni və dini xüsusiyyətini nəzərə almayan universal dəyərləri qəbul etməsi üzərində qurulmuşdur. Sonrakı proseslər göstərdi ki, bu siyasət işçi miqrantların Qərb dəyərlərinə uyğunlaşdırılmasına deyil, daha çox təcrid olunmasına yönəlmişdir. Avropada yeni sakinlərə sanki "istismar müddəti" başa çatdıqdan sonra geri qayıtmalı olan miqrantlar kimi baxılırdı. Bu prosesdə "Qoca qitə"nin yeni sakinlərinin yalnız birinci nəsli ilə bağlı problem yaşanmadı. Artıq ikinci nəsil miqrantların təhsil, sosial, dini ibadət, ailə kodeksi və mədəni dəyərlərinin nəzərə alınmaması Avropanın özünün elan etdiyi demokratik prinsiplər və multikultural dövlət doktrinası ilə ziddiyyət təşkil edirdi. Bütün bunlar üçüncü minilliyə doğru Avropa ölkələrinin daha əvvəl bəyan etdikləri prinsiplərdən geri çəkilməsinə səbəb oldu.

Bu mərhələdə Avropa ölkələrinin liderlərinin bəyan etdikləri multikulturalizm müstəmləkələrdən gələn yeni sakinlərin Qərbin vahid dəyərlər sisteminə daxil olması və miqrantların assimilyasiyasına yönəlmiş ideologiyaya xidmət edirdi. Lakin hadisələr göstərdi ki, Qərbin müstəmləkə siyasəti həmin dövrdən etibarən tamamilə əks-effekt verməyə başlamışdır. Avropalıların "böyük coğrafi kəşflər" dövründən başlayan qanlı işğalçılıq siyasətindən fərqli olaraq, miqrantlar Avropada səssiz-səmirsiz məskunlaşmaqla bu məkanı "işğal" etməyə başladılar. Keçən dövr ərzində isə, fərqli mədəniyyət daşıyıcılarını universal modelə tam uyğunlaşdırmaq, "Qoca qitə"də mozaik cəmiyyət yaratmaq mümkün olmadı.

Qərbsayağı multikulturalizmin böhranı və ya məğlubiyyəti ilə bağlı mülahizələr də bu mərhələdən başlayaraq səslənməyə başlandı. Burda əsas səbəb olaraq dominant etnosun yalnız öz mədəni və dini dəyərlərinə üstünlük verməsini göstərmək olar. Qərbin gözündə yeni gələn miqrantlar mühacir qəbul edən cəmiyyətin yeknəsəq tərkib hissəsi olmalıdır. Onların fərqli davranış və ya əxlaq normaları Qərb dəyərləri ilə uyğun gəlmədiyi üçün qəbuledilməzdir. Lakin hətta ikinci və üçüncü nəsil miqrantların uyğunlaşma problemləri və dini-mədəni ənənələri saxlaması multikultural siyasətdə nəyinsə çatışmadığını göstərdi. "Qoca qitə"də Qərb dəyərlər sistemindən fərqli dəyər daşıyan yeni sakinlərin problemlərinin həllinə Avropa dövlətlərinin liderləri "kim bizim kimi deyilsə, bizimlə yaşaya bilməz" fəlsəfəsi ilə baxmağa başladılar. Bu isə islamofobiya, ultramillətçilik, radikalizm meyillərinin və paralel olaraq, beynəlxalq terrorizm şəbəkəsinin "ədalətli dünya" qurulması ilə bağlı çağırışlarına qoşulanların sayının artmasına səbəb oldu.

Əslində isə, dünyada artmaqda olan fərqliliklər arasında toqquşma və ziddiyyətlərin fonunda bəşəriyyətin gələcəyinə əsas ümid dialoq və harmoniyadır. Çünki tarixi inkişaf boyu biz fərqli dinlər, mədəniyyətlər və sivilizasiya daşıyıcılarının eyni məkanda bərabər şərtlərlə yanaşı və birgə yaşamasının mümkün olduğu kimi, olmadığı hallarla da dəfələrlə rastlaşmışıq. Fərqli zamanlarda xristian və islam, xristian və bütpərəst, islam və bütpərəst, eləcə də, Qərb və Şərq dəyər daşıyıcılarının ziddiyyəti onların bir-birindən təcrid olunmuş şəkildə yaşamasını şərtləndirmişdir və onların bir-birinə qarşı dözümlülüyünün yalnız bərabər gücə malik olduqları hallarda mümkün olduğunun şahidi olmuşuq. Müasir dövrümüzdə isə, qloballaşma proseslərinin bu qədər dərininə inkişaf etdiyi bir dövrdə, artıq bu mümkün deyil. Qloballaşan dünya fərqli mədəniyyətlərin birgəyaşayışı olmadan mövcud ola bilməz. Artıq dünyada monokultural və monoetnik cəmiyyət və ölkə anlayışı qəbul olunmur. Beynəlxalq münasibətlərdə də - istər siyasi, istərsə iqtisadi və ya mədəni sahə olsun - hər hansı dövlət özünütəcrid şəraitində inkişaf edə bilməz. Bəşəriyyət yalnız fərqliliklərin dəyərlərinə hörmət etməklə, inkişaf edə bilər. Dünyada çox az sayda mövcud olan monoetnik ölkələr isə ya coğrafi, tarixi, siyasi səbəblərdən təcrid olunmuşdur, ya da bu, ölkədə aparılan şovinist və dözümsüzlük siyasətinin təzahürüdür. Misal üçün, monoetnik ölkə olan Ermənistanda, bu, digərlərinə qarşı dözümsüzlük ideologiyasının nəticəsidir. Bu mənada, Azərbaycan bütün dünyaya örnək ola biləcək dəyərlərə sahibdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ilin aprel ayında Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun açılışında səsləndirdiyi fikirlər Azərbaycanda cəmiyyətin multikultural həyat tərzinə baxışını çox dəqiqliklə ifadə edir: "Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. Multikulturalizm sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb". Keçən tarixi zaman kəsiyi təsdiq etmişdir ki, Azərbaycan "sonrakı" müxtəlifliyi öz dəyərlər sistemində xüsusi yer ayırmaqla qorumuşdur. Bu isə, vətənimizin "ilkin" və "sonrakı" müxtəlifliyin bərabər şərtlər altında birgəyaşayış fəlsəfəsini və multikultural dəyərlər münasibətini ortaya qoyur. Fərqli dəyər sistemi daşıyıcılarını qəbul edə bilməyən və bununla da, multikultural cəmiyyətin gələcəyinə şübhə ilə yanaşan Avropadan fərqli olaraq, Azərbaycanda "ilkin" və "sonrakı" müxtəlifliklərin birgəyaşayışına əsaslanan multikultural dəyərlər böhran yox, intibah yaşayır. Çünki multikulturalizm Azərbaycanda həyat tərzidir.

# Ölkəmizdə gənclər siyasəti yeni mərhələyə qədəm qoyub

"Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi gənclər siyasətinin nəticəsidir ki, ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, geniş dünyagörüşlü, vətənpərvər ruhlu yeni nəsil yetişib". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı gənclər birliyinin fəalı, tələbə Cəmilə İsmayılova deyib. Onun sözlərinə görə, bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasəti dünya ölkələrinə nümunə olacaq bir səviyyədədir: "Ölkəmizdə gənclər siyasəti bu gün müasir dövrün tələblərinə və reallıqlarına uyğun olaraq mahiyyət və keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyub. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən gənclər siyasətinin başlıca istiqamətlərindən biri gənclərə dövlət dəstəyinin gücləndirilməsindən, onlara hərtərəfli diqqət göstərilməsindən ibarətdir. Son illər respublikamızda həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait və təminatların yaradılmasını sürətləndirib, onların ictimai-siyasi fəallığının artmasına kömək edib".



"Əlbəttə ki, Azərbaycan gəncliyi ictimai həyatın bütün bölmələrində fəallığı ilə seçilir, siyasi, iqtisadi, humanitar və sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Son bir neçə il ərzində, bilavasitə gənclərlə bağlı xeyli sayda normativ sənədin qəbul olunması ölkəmizdə gənclərlə iş sahəsində, gənclərin sosial-iqtisadi inkişafına yönəldilmiş mükəmməl qanunvericilik bazasının formalaşdırılmasından xəbər verir" deyən C.İsmayılova onu da bildirib ki, ölkədə xüsusi qayğıya ehtiyacı olan, istedadlı gənclər üçün sosial layihələr həyata keçirilir: "Fevralın 1-də Cənab Prezidentin gənclərlə tarixi görüşü bizlərə Öz dəstəyini nümayiş etdirdi və mühüm tövsiyyələr verdi. Qeyd etdi ki, gənclər təhsilə xüsusi önəm verməli, daima öz bilik və bacarıqlarını inkişaf etdirməlidirlər. Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevin növbəti dəfə doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin artırılması, eyni zamanda, I və II dərəcə əlilliyi olan şəxslərin, habelə, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi ilə bağlı imzaladığı sərəncamlar gənclərə göstərilən qayğının və dəstəyin əyani sübutudur. Bu sərəncamlar gənclərin təhsilə marağını daha da artırmaqla yanaşı, onların daha yaxşı oxumalarına yeni stimul olacaq".

***Zümrüd BAYRAMOVA***

# Sədaqət Vəliyeva: "Anti-Azərbaycan qüvvələri Əli Kərimlidən ölkəmizin inkişafına qarşı "əyləc mexanizmi" kimi istifadə edirlər"



***"Azərbaycan hakimiyyətinin dövlətimizi dünyada baş verən qlobal maliyyə-iqtisadi böhrandan az itkilərlə çıxarması, dinamik inkişafını təmin etməsi və xalqın maraqlarını müdafiə edərək, onun sosial rifah halını daha da yüksəltməsi anti-Azərbaycan dairələrini çox narahat edir. Ona görə də, ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaq, inkişaf proseslərinin qarşısını almaq üçün "beşinci kolon"dan istifadə edirlər". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.***

S.Vəliyeva bildirib ki, sözügedən prosesdə ictimai rəyi mənfi tonda yükləmək və ölkəmizin əldə etdiyi nailiyyətləri, uğurları ləkələmək, xalqımızın firavan və sakit yaşayışına mane olmaq üçün AXCP-dən və onun sədri Əli Kərimlidən istifadə edilir: "Daha doğrusu, anti-Azərbaycan qüvvələri Ə.Kərimlini ölkəmizin inkişafına qarşı "əyləc mexanizmi" kimi istifadə edirlər. Ə.Kərimli Avropada və ABŞ-da qrantlar hesabına maliyyələşdirilən Sevinc Osmanqızı, Qənimət Zahid kimi anti-milli ünsürlərin internet kanallarında ona verilmiş tezislər əsasında çıxışlar edir, müəyyən məbləğlər qarşılığında trolların anti-milli fəaliyyətini təşkil edir, erməni mətbuatı və lobbisi ilə sinxron işlər görülür, əsassız və qondarma iddialar üzrə mitinqlərə çağırışlar edilir. Əlbəttə ki, Ə.Kərimlinin bu çağırışları hər zaman xalqımız tərəfindən rədd edilir, ona dəstək verilmir. Elə bu səbəbdən də, insanlar dövlətçiliyimizin düşməni olan radikal müxalifəti ciddi şəkildə qınamalı və onlara yerini göstərməlidir".

"Ə.Kərimlinin trol kimi əməyini istismar etdiyi gənclər də artıq onun məqsəd və məramını anlamalıdır" deyən Sədaqət Vəliyeva əlavə edib ki, cəbhəçi gəncləri itaətsizliyə dəvət edib, onları qanunları pozmağa məcbur edib həbs etdirən, sonra isə onların üzərindən müxtəlif təşkilatlardan qrant, ianə alan Ə.Kərimliyə niyə sual etmirlər ki, AXCP sədri, eləcə də, "Milli Şura"nın, digər müxalifət partiyalarının sədrləri insanları mitinqlərə səslədikləri zamanda öz ailə üzvlərini bu mitinqlərdən uzaq tuturlar: "Nə üçün soruşmur ki, Ə.Kərimlinin oğlu Türkel Kərimli ABŞ-da hansı vəsaitlər hesabına bahalı həyat tərzi sürür? Hansı səbəbdən, Əli Kərimlinin həbsi üzərindən siyasi oyunlar qurduğu gənclər həbsdən azad olunandan sonra onlarla əlaqəni kəsir, yaxud onları düşmən və satqın elan edir? Suallar çoxdur və bu sualların ümumi məntiqi cavabı ondan ibarətdir ki, Ə.Kərimlini xalqın maraqları deyil, məhz şəxsi mənafeləri düşündürür".

**R.HÜSEYNOVA**

# Tural Abbaslı İsgəndər Həmidovun mitinq qərarını rədd etdi





Parçalanmış "Azərbaycan Xalq Hərəkatı" daxilində çaxnaşmalar davam edir. Qurumun AMDP sədri İsgəndər Həmidov tərəfindən olan qanadı mitinq günü təyin etsə də, "Ağ Partiya" sədri Tural Abbaslının təmsil olunduğu qanad bundan xəbərsiz olduqlarını deyərək, eyni zamanda, mitinq qərarını rədd ediblər. Məsələ ilə bağlı mətbuata açıqlama verən T.Abbaslı həm də təmsil olunduğu hərəkatın idarə heyətinin üzvü olduğunu xatırladaraq bildirib ki, idarə heyətinin bu cür qənaəti yoxdur və o, iddia edilən mitinqi İ.Həmidovun bir vətəndaş olaraq təyin etdiyi mitinq kimi qəbul edir: "Mənim təmsil olunduğum "Azərbaycan Xalq Hərəkatının" idarə heyəti 25 maya və ya başqa günə hələ mitinq təyin etməyib. Düşünürəm ki, hər bir vətəndaş kimi İsgəndər Həmidovun da sərbəst toplaşmaq azadlığından istifadə hüququ var və görünür, o, həmin hüququndan istifadə edərək mayın 25-nə mitinq təyin eləyib. 25 may mitinqini "AXH"-nin yox, İsgəndər Həmidovun mitinqi hesab etmək daha doğru olar. Odur ki, mən bu mitinqə "Azərbaycan Xalq Hərəkatı"nın mitinqi deməyi doğru hesab etmirəm. Əgər "Azərbaycan Xalq Hərəkatı"nın mitinq barədə qərarı yoxdursa, bizim idarə heyəti üzvü kimi o mitinqdə iştirakımız, təbii ki, mümkün deyil".

"Ağ Partiya"nın sədri istehzalı şəkildə İ.Həmidovun mitinq qərarına həm də belə münasibət sərgiləyərək deyib ki, o, ümumiyyətlə "AXH"-nin məclisinin keçirilməsindən bixəbərdir: "Mən "Azərbaycan Xalq Hərəkatı"nın məclisinin keçirildiyini xatırlamıram. "AXH"-nin məclisi keçirilib ki, mitinq barədə də qərar verilsin? Məclis keçirilsəydi, biz də iştirak etmiş olardıq. Bəzi insanların yığışıb toplantı keçirmələri hələ o demək deyil ki, bu, "Azərbaycan Xalq Hərəkatı"nın məclisinin iclasıdır".

**RÖVŞƏN RƏSULOV**

# Azərbaycanda 52 min 807 orta tibb işçisi var



Azərbaycanda 52 min 807 orta tibb işçisi var ki, onların da 37 min 322 nəfəri tibb bacılarıdır. Dövlət Statistika Komitəsinin son məlumatına görə, əhalinin hər on min nəfərinə düşən orta tibb işçilərinin sayı 54, tibb bacılarının sayı isə 38.2-yə bərabərdir. Səhiyyə Nazirliyindən SİA-ya verilən məlumata görə, ölkəmizdə peşəkar tibb bacılarının hazırlanmasına xüsusi diqqət yetirilir, onların bilik və bacarıqlarının artırılması istiqamətində tədbirlər görülür. Hazırda tibb bacıları səhiyyə işçiləri arasında sayca çoxluq təşkil edirlər. Xəstələrin sağalıb şəfa tapması və normal həyata qayıtmağında həkim göstərişlərini yerinə yetirən xidmət işçisi kimi onların üzərinə böyük vəzifə düşür.

# Xaricdəki "söyüş qrupu" erməni maraqlarına xidmət edir

***Son vaxtlar xaricdəki "söyüş qrupu"nun üzvləri Azərbaycan dövlətinin, xalqının milli hissiyyatına toxunan təhqiramiz ifadələr işlədir və videolar paylaşırlar. AXCP sədri Əli Kərimli, Sevinc Osmanqızı kimi xarici maraqlı dairələrdən maddi və mənəvi yardım alan ünsürlərdə onların bu fəaliyyətlərinə dəstək nümayiş etdirirlər. Söhbət etdiyimiz müsahiblərimiz "söyüş qrupu"nun üzvlərinin, eləcə də, Ə.Kərimli və S.Osmanqızının təxribatçı fəaliyyətləri ilə erməni maraqlarına xidmət etdiklərini bildirdilər.***

## "Yurddaş" partiyasının sədri Mais Səfərli: "Müxalifət ədəbsizlik edir"



- Söyüş insana yaraşmayan bir haldır. Əgər onlar özlərini siyasətçi adlandırırlarsa, deməli, yanılırlar. Azərbaycan dövlətinin və xalqının milli hissiyyatına toxunan təhqiramiz ifadələr işlətməklə ədəbsizlik edirlər. Bildiyiniz kimi, vaxtaşırı olaraq daxili və xarici qüvvələr ölkəmizə qarşı söyüş metodundan istifadə edirlər ki, bu da təsadüfi deyil. Çünki Azərbaycanla bağlı uğurlu tədbir olanda və böyük ürəkaçan nailiyyətlər baş verəndə, müxalifət hay-küy salır. Bildiyiniz kimi, Azərbaycanla Avropa İttifaqı arasında sazişin imzalanması gözlənilir. Həm də, Azərbaycanla Avropa İttifaqı arasında getdikcə inkişaf edən əlaqələr mövcuddur. Azərbaycanı özlərinin etibarlı tərəfdaşı kimi görürlər və bütün bunların hamısı Azərbaycanı istəməyən, sevməyən qüvvələri narahat edir. Həmin qüvvələr Azərbaycana qarşı iftira atmaqla və şər-böhtan kampaniyası aparmaqla sifariş yerinə yetirdiklərini nümayiş etdirirlər. Yəni hazırkı məqamda xaricdəki "söyüş qrupu"nun və daxildəki qüvvələrin hay-küyləri heç də təsadüfi deyil. Bir sözlə, Azərbaycanla Avropa İttifaqı arasında imzalanması gözlənilən sənəd həmin məkrli qüvvələri ciddi narahat edir. Bu baxımdan, ölkəmizə qarşı kampaniya aparırlar. Amma onların ölkəmizlə bağlı olan bu cür xoşagəlməz istəkləri heç vaxtı baş tutmayıb və bundan sonra da reallaşmayacaq. Bu gün Azərbaycan xalqı ağı qaradan seçir və onların kim olduqlarını onların özlərindən yaxşı bilir. Onlar ermənilərin dəyirmanına su tökənlərdir. Əgər onlar öz vətənlərini sevsəydilər, Azərbaycanın inkişafı ilə bağlı bu cür anormal addımlar atmazdılar.

## "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas: "Xaricdəki "söyüş qrup"ları daxili xəyanətkarlardan dəstək alırlar"



- Ölkəmizin əleyhinə xaricdəki düşmənlər tərəfindən formalaşdırılmış "söyüş qrup"larının fəaliyyəti barədə yazı və müsahibələrimdə, dəfələrlə fikrimi açıq ifadə etdiyim kimi, yenə də o qənaətdəyəm ki, bu qruplaşmalar ölkəmizin xarici və daxili düşmənlərinin maliyyə dəstəyilə hərəkət edirlər. O da real həqiqətdir ki, xaricdəki "söyüş qrup"ları daxili xəyanətkarlardan dəstək alırlar. O da məlumdur ki, ölkə daxilindəki düşmən və xəyanətkar qüvvələr radikal müxalifət cildinə girib, ölkəmizə qarşı öz çirkin fəaliyyətlərini daim davam etdirirlər. Əli Kərimlinin, Sevinc Osmanqızının və digərlərinin xaricdəki "söyüş qrup"larına dəstək verməsini də yalnız ölkəmizə qarşı düşmənçiliklə məşğul olanların sırasında dayanmalarından başqa bir şey olmadığına zərrəcə şübhə yoxdur.

## İnsan Hüquqları XXI əsr Fondunun sədri Şahin Camalov: "Müxalif ünsürlərdən bir vasitə kimi istifadə olunur "



- Dövlət və xalq haqqında bu və ya digər şəkildə təhqiramiz ifadələr işlədən hər hansı bir şəxs məsuliyyətə cəlb olunmalıdır. Dövlətin fəaliyyətinə kölgə salacaq xoşagəlməz fikirlər işlətmək və dövlətimizin dünyadakı müsbət imicinə xələl gətirəcək addımlar atmaq yolverilməzdir. Kimlər ki, xaricdəki "söyüş qrupu"nun üzvlərinə dəstək verirlər, onlar haqqında hüquqi ölçü götürülməlidir. Bu gün Azərbaycan dövlətinin inkişafını istəməyən və bu inkişafa kölgə salmaq istəyən xarici qüvvələr var. Həmin xarici qüvvələrin istəklərini reallaşdırmaq üçün daxili müxalif ünsürlərdən bir vasitə kimi istifadə olunur. Faktlarda təsdiq edir ki, ölkəmiz haqqında xoşagəlməz fikirlər səsləndirən insanların böyük əksəriyyəti bu cür hərəkətlər etmələrinin qarşılığında həmin xarici qüvvələr tərəfindən böyük maliyyə yardımları alırlar.

**GÜLYANƏ**

## Keçmiş məhkumdan qumbara və narkotik vasitə götürülüb

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb. Daxili İşlər Nazirliyi Mətbuat xidmətindən verilən SİA-ya verilən məlumata görə, Neftçala Rayon Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində şəhər sakini, əvvəllər narkotiklərlə bağlı cinayətə görə məhkum olunmuş E.Həziyevin "QAZ-3302" markalı avtomobilindən marixuana aşkar edilərək götürülüb.



Davam etdirilən tədbirlərlə E.Həziyevin Yeniqışlaq kəndi ərazisindəki şəxsi təsərrüfatında olan dəmir konstruksiyalı vaqondan isə 1 ədəd "F-1" markalı qumbara və 10 kiloqramdan artıq marixuana aşkar edilərək götürülüb. Digər əməliyyat tədbirləri ilə Neftçala Rayon Polis Şöbəsinin əməkdaşları şəhər sakinləri N.Qardaşova məxsus həyətyanı sahədən 146 ədəd, N.Əmirova məxsus həyətyanı sahədən isə 11 ədəd kultivasiya yolu ilə yetişdirilmiş çətənə kolları aşkar edərək götürüblər. Faktlarla bağlı araşdırmalar aparılır.

# Aslan İsmayılovun casusluqda pərdəarxası oyunu

*"Əzabkeş vəkil"in nağılları*

***Düzlükdən, doğruluqdan dəm vur, səsini başına at, videoroliklər çəkib paylaş, əyər-əskikləri göstərmək üçün gah dağa çıx, gah da bağa en... Nə edirsən et, ay Aslan İsmayılov, kimin kim olduğunu hamı yaxşı bilir. Atalar demişkən, dəvəquşu başını quma basır, elə zənn edir ki, heç kim görmür. Sən get o nağılları öz səviyyəndə olanlara söylə. Rəhmətlik Hacıbaba Bağırovun sözü olmasın, "bizə paçka basma".***



Azərbaycana qarşı düşmənçilik edən İsgəndər Hüseynzadəyə görə "ilişib", terrorçuluqda və dövlətə xəyanətdə ittiham olunan bir xainlə A.İsmayılovu birləşdirən maraqlar üzə çıxır, yenə də öz çirkin əməllərindən əl çəkmirsən. Səni qınamırıq. Xəmirin belə yoğrulub. İllərlə "vəkil" oldun, ictimai-siyasi mühitdə boy göstərməyə çalışdın, alınmadı. Çünki sənin seçdiyin yol xəyanət, böhtan oldu, bunun da sonu bəllidir - etdiyin əməllərinə görə cəza çəkməlisən.

Xislətkarın Ə.Kərimli də belə edir: "Ya yanımda ol, ya qarşımda" deyə şantaj və terror edir insanları. "Dövlətə xəyanət" və "Terrorçuluq" maddələri ilə cinayət işi açılan, beynəlxalq axtarışa verilən, ölkəmizlə düşmənçilik edən, şər-böhtan yayan İsgəndər Hüseynzadəyə dəstək olan Aslan İsmayılov hansı düzlükdən danışır? Özünü hər mövzuda bilgili göstərməyə çalışan A.İsmayılov İsgəndər Hüseynzadənin gerçək kimliyindən, həqiqətən xəbərsizdir? Xəbərlidir və özü də vətən xaini olan, 22 ildir Azərbaycandan qaçıb Qumda gizlənən İ.Hüseynzadənin təbliğatı ilə məşğuldur.

### Sosial şəbəkənin məşhurlaşdırdığı Aslan İsmayılov

Heç kimə sirr deyil ki, "Facebook" hazırda dünyanın ən çox gəlir gətirən şirkətlərindən biridir. Aslan İsmayılov da özünü çirkin və böhtan xarakterini sosial şəbəkələrdə göstərməklə "güclü vəkil" sayır. Belə ki, bu, o A.İsmayılovdur ki, zaman-zaman Ədalət partiyasından və İlyas İsmayılovdan öz əxlaqına uyğun bir şəkildə aralanan Aslan İsmayılovun növbəti dayanacaqlarından biri Rüstəm İbrahimbəyovun çətirinin altına çəkildi. Azərbaycan hakimiyyətindən incik düşmüş və 2013-cü il seçkilərində Rusiyanın əlaltısı kimi prezidentliyə namizəd olmağa hazırlaşan Rüstəm İbrahimbəyov 2009-cu ildə "Ziyalılar Forumu" adlı bir qurum yaratmışdı. Aslan İsmayılov həmin qurumun yaradıcılarından olmaqla, özünü Rüstəm İbrahimbəyovun əsas dayaqlarından biri kimi göstərirdi. Eyni erməni xislətli, satqınların birləşdiyi bu qurumda ancaq A.İsmayılov kimilər bir yerdə ola bilər. Çünki hər ikisi üçün milli-mənəvi dəyər, dövlətçiliyə xidmət kimi anlayışlar yoxdur. O, yalnız öz şəxsi mənfəətlərini üstün tutan adamdır. Dünyaya öz cibindən baxan "hüquqşünas" mənfəətləri naminə, nəinki yaxın dostlarını, hətta dövlətinin milli maraqlarını hərraca çıxara biləcək xarakterdədir. Hər halda, vaxtilə onunla səngərdə dayanan köhnə dostları bunu etiraf edirlər.

"Yeni Musavat" qəzetinin təsisçisi və baş redaktoru Rauf Arifoğlunun qələmə aldığı "Aslan İsmayılov niyə vətən xaininə qoşuldu?" sərlövhəli yazısını da bu qəbildən saymaq olar: "Aslan İsmayılov reketçilyi cinayət tərkibli oyun, pis nümunə və böyük təhlükədir. Onun əməllərinə son qoyulması Azərbaycanın ləyaqətli insanlarının, ölkənin iqtisadi inkişafı üçün çalışan iş adamlarının, milli-mənəvi dəyərlərimizə sahib çıxan ziyalıların, media nümayəndələrinin, hüququn, qanunvericiliyin, müstəqil məhkəmə sisteminin şantajdan xilas edilməsidir".

### "Aslan İsmayılov. Yalan Anatomiyası"

Tanınmış vəkil Elçin Qəmbərovun "Aslan İsmayılov. Yalan Anatomiyası" kitabında müəllif hüquqşünas Aslan İsmayılovun çoxüzlü və şantajçı bir şəxs olduğunu deyib. Bəlkə yalandır, ay özünü adına görə "aslan" sayan, mən də səni heç çaqqal qismində də qiymətləndirməmişdim. Necə deyərlər, qələmin iti olsun, ay Elçin Qəmbərov! A.İsmayılov Vətən xaini deyil, bəs nədir? Sumqayıt hadisələri zamanı özünü qəhrəman kimi göstərib, Moskvaya, "KQB"-yə qarşı çıxışlar etdiyini deyirəm. Elə hüquqşünas müəllif də bunu deyir: "Onun heç bir fəaliyyəti olmayıb. A.İsmayılov azərbaycanlıların tərəfində olsaydı, özünü ermənipərəst kimi aparmazdı.

Özünü Azərbaycanın ən böyük "hüquqşünası" sayan Aslan İsmayılov da bu xudpəsənlik mərəzinə yoluxanlardandır. Qınamıram, gərək ağıl ola ki, ağzından çıxan sözün də dəyərini biləsən. Ata-babalarımız deyiblər ki, baş qoşduğun adamla eynisən. Deməli, insan öz baş qoşduğu adamın səviyyəsinə enməklə yanaşı, həm də onu öz mərtəbəsinə qaldırır. Mən isə hələ də xudpəsənlik yuxusundan ayılmayan bu fərdə baş qoşmaqla, onu layiq olmadığı mərtəbəyə yüksəltmək niyyətində deyiləm.

Ancaq zaman Aslan İsmayılovu əridəcək.

Çünki Aslan İsmayılovun bütün əxlaqsız hərəkətləri erməniləşməklə yanaşı, həm də mənəviyyat çirkaba bulaşmış erməni xislətlidir. Erməniləri müdafiə edə-edə, onların yanında dayana-dayana ermənilər kimi özü üzərində yazıqlıq, haqsızlığa məruz qalmışlıq imici yarada-yarada siyasi və maddi dividend toplayır, mal-dövlət yığır. Ancaq Aslan İsmayılov bilməlidir ki, xalq və dövlət maraqlarımıza qarşı törətdilən çoxsaylı xəyanətlərinin cavabını verilməsi zamanı çatıb. Çox da başayaq atma, Aslan İsmayılov, əlahəzrət qanun qarşısında cavab verəcəyin gün elə də uzaqda deyil!

***Rəfiqə HÜSEYNOVA***

# Ordumuzun gücü Paşinyanı susduracaq

***Ermənistanın küçə demokrat Paşinyan bəyan edib ki, Ermənistan hakimiyyəti Dağlıq Qarabağın Azərbaycana verilməsinə razı olmayacaq. Söhbət etdiyimiz müsahiblərimiz Nikol Paşinyanın bu tip fikrinin daxili auditoriyaya hesablanmış bir bəyanat olduğunu bildirdilər.***

### Politoloq Qabil Hüseynli: "Ermənilər həddindən artıq həyasızlaşıblar"



- Nikol Paşinyanın bu fikirləri daxili auditoriyaya hesablanmış fikirdir. Həm də, Paşinyan tərəfdarlarının real düşüncəsini əks etdirir. Buradan da, belə bir nəticə çıxarmaq olar ki, Paşinyanla danışıqlar prosesində heç bir müsbət irəliləyişə nail olmaq mümkün olmayacaq və müəyyən dairələrin, yəni rus dairələrinin köməyi ilə Paşinyan indiki status-kvonu qoruyub-saxlamağa çalışacaq. Belə olan halda da, Azərbaycanın bir yolu qalır. Bu yol da öz ərazi bütövlüyümüzü Azərbaycan Ordusunun gücü ilə bərpa etməkdir. Artıq danışıqlarla bağlı illüziyalara qapılmağın vaxtı keçib. Ermənilər həddindən artıq həyasızlaşıblar və eyni zamanda da, Rusiyanın Ermənistana dəstəyi xeyli güclənib. Bu iki amilin birləşməsi nəticəsində, onlar açıq-aşkar meydan sulayırlar. Bir sözlə, torpaqları azad etmək üçün Azərbaycan xalqının gücü, əzmi və iradəsi mütləq ortaya qoyulmalıdır.

### Politoloq Elxan Şahinoğlu: "İşğalçıya təzyiqləri artırmalıyıq"

- Paşinyanın bu cür fikirlər səsləndirməsinin bir neçə səbəbi var. Birincisi, daxili aditoriyaya hesablanıb. Yəni bununla Paşinyan demək istəyir ki, mən güzəştə getməyəcəm. Necə ki, keçmiş prezidentlər sərt siyasət yürüdüblər, o da onlar kimi hərəkət etmək istəyir. "Qarabağla bağlı eyni siyasəti mən də davam etdirəcəm" deyir. İkincisi, Paşinyan Qarabağ məsələsi ilə məşğul olmaq istəmir. Çünki bilir ki, bu, çox ağrılı məsələdir və problem yarada bilər. Paşinyan daha çox daxildə siyasi və iqtisadi problemləri həll etmək istəyir. Çünki verdiyi vədləri yerinə yetirmədikcə çətinlik çəkir və islahatlar yerində sa-



yır. Ona görə də, ümumiyyətlə, Paşinyan Qarabağla məşğul olmaq istəmir. Qarabağ onun üçün bir yükdür və yük olduğuna görə də, hər dəfə məsələni belə qoyur ki, qoy Qarabağ separatçıları da danışıqlarda iştirak etsin. Bununla biz heç zaman razılaşa bilmərik. Ona görə də, mən düşünmürəm ki, biz Paşinyandan yaxın müddətdə - il ərzində, hansısa bir addım gözlənilsin. Necə ki, Koçaryan və Sarkisyan işğal siyasət yürüdürdü, Paşinyan da həmin siyasəti yürüdür. Hətta Paşinyan bir az da o tərəfə keçir. Ona görə də, biz öz tədbirlərimizi görməli və işğalçıya təzyiqlərimizi artırmalıyıq.

***GÜLYANƏ***



# Qələbə əzmi bu "qüvvələr"in kələyini çoxdan kəsib

RƏFİQƏ

***Kifayət qədər sübuta yetirilib ki, Azərbaycan, sözün əsl mənasında, idman dövlətidir. Avropa Oyunlarının ilk dəfə ölkəmizdə keçirilməsi barədə verilən qərar və artıq həmin qərarın müqabilində, Azərbaycanın möhtəşəm idman yarışlarına hazır olması, bir daha təsdiq edir ki, Azərbaycan hər cür qələbəyə layiqdir və qadirdir! Xüsusilə də, son 16 il ərzində, bütün sahələrdə olduğu kimi, idman sahəsində də əldə olunan böyük və tarixi nailiyyətlər deyilənlərin sübutu və Azərbaycan dövlətinin təntənəsidir.***

Azərbaycan idmanının dünyanın bütün ölkələrində əldə etdiyi uğur və nailiyyətləri, Olimpiya Hərəkatında qazanılan çoxsaylı medallar, ölkəmizdə keçirilən müxtəlif səpkili beynəlxalq idman yarışları, məhz tarixi nailiyyətlərimizin sırf göstəricisidir. Azərbaycan xalqının ümidləri hər zaman özünü doğruldub. Çünki bu ümidlərin, I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi faktı möhkəm əsaslara söykənir. Biz artıq neçə ildir ki, bu qələbəyə doğru irəliləyirik. Birinci dəfə müstəqil dövlət kimi, Atlantada bir medal, ondan sonra Sidneydə üç, Afinada beş, Pekində yeddi, Londonda on medal... Beləliklə, bizi gələcəkdə də medallar və qələbələr bundan sonra da gözləyir. Bu qələbələr Azərbaycan xalqının qələbəsi, idmançıların qələbəsi olacaq. Belə ki, Azərbaycan bu qələbələrə layiq ölkədir. Məhz Prezidentimiz İlham Əliyev də belə vurğulayıb: "Azərbaycan güclü dövlətdir. Güclü dövlətin güclü idmanı da olmalıdır. Həyatımızın hər sahəsində olduğu kimi, idmanda da qələbələrimiz görülən işlərin məntiqi nəticəsidir. Azərbaycanda çox güclü və mehriban idman ailəsi vardır. Bu istiqamətdə düzgün dövlət siyasəti aparılır. Dövlət siyasətinin düzgün istiqamətdə aparılması, idmanın inkişafına cavabdehlik daşıyan bütün qurumların vahid komanda şəklində fəaliyyət göstərməsi, idmançılarımızın peşəkarlığı və Vətənə olan sevgisi bu qələbələri şərtləndirdi".

Göründüyü kimi, artıq əldə edilən hər bir nailiyyətin arxasında faktlar və danılmaz həqiqətlər dayanır. Hətta son zamanlar Azərbaycanın bu kimi mötəbər və möhtəşəm yarışlara ev sahibi adını əldə etməsindən vahiməyə düşən, qıcıqlanan, hətta aqressivləşən bir sıra siyasi dairələr, onlara kifayət qədər pul-para buraxan erməni lobbisi, o cümlədən, sapı özümüzdən olan tiyələri korşalmış baltalar da, yəqin ediblər ki, onların qərəz, şantajlar üzərində etdikləri var-gəlləri nəticəsiz qalacaq. Çünki Azərbaycanın qələbə əzmi çoxdan bu "qüvvələrin" kələyini kökündən kəsib.

# Britaniya qərəzi - UEFA

*Və ya dağıdıcı müxalifətin növbəti qısqanclığı*

**Azərbaycanın uğurlu inkişafı, qarşıda duran vəzifələrin müvəffəqiyyətlə icrası ölkəmizin dünya birliyindəki reytinqini getdikcə artırır. Ölkə iqtisadiyatının dünya miqyasında ən rəqabətqabiliyyətli 50 iqtisadiyyat sırasında olması uğurlarımızı əks etdirən faktlardandır.**



Son aylar Azərbaycanda bir-birinin ardınca keçirilən mühüm əhəmiyyətli beynəlxalq tədbirlər də bundan xəbər verir. Dünyanın tanınmış ictimai-siyasi xadimləri də, etiraf edirlər ki, Azərbaycan mühüm əhəmiyyətli beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Təəssüf ki, bu uğurlardan qısqanclıq hissi keçirən, hətta alışıb-yanan dağıdıcı müxalifət anti-Azərbaycan qüvvələrin əlində alətə çevrilərək, onların çirkli pulları hesabına ölkə daxilində qarşıdurma, hakimiyyətlə xalq arasında süni narazılıqlar yaratmağa cəhd edir, ikrah doğuran vasitələrlə respublikamızın getdikcə artan reytinqinə xələl gətirmək istəyirlər. Ancaq onlar, öz məkrli niyyətlərinə nail ola bilməyiblər və bundan sonra da nail ola bilməyəcəklər. Çünki xalq ölkəmizdə demokratik proseslərin inkişafını yüksək dəyərləndirir və bu şəraiti yaradan, Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirən Prezident İlham Əliyevin siyasi xəttini dəstəklədiklərini bəyan edirlər. Milli maraqlardan, millilikdən uzaq olan xəyanətkar qüvvələrin çağırışlarına isə məhəl qoyan yoxdur. Çünki müxalifətin xəbis niyyəti və ermənipərəst qüvvələrin çaldığı havaya oynaması hamıya məlumdur. Onlar hakimiyyətə gəlmək üçün istənilən yola gedir, yalan, əsası olmayan fikirlər səsləndirir, anti-Azərbaycan dairələrlə, hətta erməni lobbisi ilə də əməkdaşlıq edirlər. Bu yolu seçənlər ölkəmizin və regionun reallıqlarını nəzərə almır, beynəlxalq aləmdə baş verən proseslərin mahiyyətini dərk etmədən populist bəyanatlar səsləndirirlər. Ancaq nəticədə dağıdıcı müxalifətin bütün cəhdləri iflasa uğrayır.

### Zəhərli ilana çevrilməyə adət edən müxalifət

Mayın 29-da Bakıda keçiriləcək UEFA Avropa liqasının kubokunun final oyunu ilə bağlı xaricdəki bəzi dairələr, yenə də əndişə içindədir. Artıq anti-Azərbaycan dairələri ölkəmizə qarşı növbəti çirkin kampaniyaya başlayıblar. Beynəlxalq ictimaiyyətdə bu yarışın Azərbaycanda keçirilməsinin məqsədəuyğun olmadığı barədə rəyin formalaşdırılmasına cəhdlərə dəstək olan və xarici qüvvələrin alətinə çevrilən dağıdıcı müxalifət də mitinq keçirməklə meymunluq edir. Əslinə qalsa, müxalifətin ələkçinin qılverəni olması, o qədər də təəccüb doğurmur. Çünki Azərbaycan ictimaiyyəti müəyyən xarici anti-Azərbaycan dairələrin və onların əleyhinə çevrilən dağıdıcı müxalifət qüvvələrin mühüm tədbirlər ərəfəsində belə qərəzli kampaniyalar və mitinqlər keçirmək iddialarında olmalarının dəfələrlə şahidi olub. İstər 2012-ci ildə "Eurovision", 2015-ci ildə Avropa Oyunları, 2016-cı ildə İslam Həmrəyliyi Oyunları və digər bu tipli yarışlar ərəfəsi də pozuculuq aktları törətməyə cəhdlər ediblər. Amma onlar dərk etməyiblər ki, Azərbaycan təmkinini itirmir və müstəqil siyasət yeritməkdə davam edir. Çünki Azərbaycan kiminsə sədəqəsinə göz dikən dövlətlərdən deyil ki, ona təzyiq göstərmək mümkün olsun.

Belə olan halda, tarix boyu vətəninə, millətinə və xalqına xəyanət edənləri ən ağır şəkildə cəzalandırıblar. Məhz bu cür əməllərə görə ittiham edilən Əl Kərimli, Arif Hacılı, Cəmil Həsənli, İsa Qəmbər, Leyla Yunus və həyat yoldaşı Arif Yunus və İntiqam Əliyev kimi Azərbaycanın maraqlarını düşmənə satanlar vətənə xəyanətdə və dələduzluqda ittiham edilməlidirlər.

Bu gün hansı formadasa mitinq keçirmək istəkləri isə, yenə də iflasa uğrayacaq. Sonda bu satqın xəyanətkarlara böyük dramaturq Mirzə İbrahimovun "Böyük dayaq" filmində deyilən sözü demək kifayətdir: "Sən nə zəhərli ilanmışsan, əəə ?!"

***Rəfiqə HÜSEYNOVA***

## Paşinyan Rusiya bayrağını təhqir edənə yüksək vəzifə verib



"Bir neçə gün öncə KİV-lər materiallar işıqlandırıblar ki, Araqasotna vilayətinin qubernatoru David Gevorkyan bir zamanlar aksiyalarda iştirak edərkən, Rusiya Federasiyasının bayrağını yandırmağa çalışıb. Lakin polis ona bu imkanı yaratmayıb. Bundan sonra o, bayrağı tapdalayıb". SİA xəbər verir ki, bu barədə Ermənistanın aysor.am saytı ölkə parlamentinin "İşıqlı Ermənistan" fraksiyasından olan deputatı Edmon Marukyanın sözlərinə istinadən yazıb. "Hesab edirəm ki, vətəndaşlar hər hansı bir ölkəyə qarşı öz mövqelərini bayraq yandırmaqla, tapdalamaqla göstərə bilərlər, lakin anlaya bilmirəm ki, mövcud hərəkəti edən şəxs Ermənistanda yüksək vəzifəyə, özü də qubernator statusuna necə nail olub?", sualını verən Marukyan əlavə edib ki, xüsusilə hakimiyyətin Rusiya ilə "parlaq" münasibətlər qurmaq istədiyi vaxtda bu anlaşılmazlıq yaradır. SİTAT: "Yəni onlar bir tərəfdən Rusiyadan SU 30-SM qırıcılarının çatdırılmasını gözləyirlər və bəyan edirlər ki, biz strateji müttəfiqlərik, danışıqlar aparırlar ki, erməni sürücülük vəsiqələri Rusiya Federasiyasında tanınsın, hansı ki, bu da alınmır, ancaq digər tərəfdən, sözügedən adamı yüksək vəzifəyə təyin edirlər". Erməni deputatı sual edib: "Maraqlıdır, görəsən hökumət Araqasot qubernatorunun siyasi baxışlarından xəbərdar olubmu?" Marukyan deputat həmkarlarından və hakimiyyətdən bu sualına cavab gözlədiyini deyib.

***Rövşən***

## Azərbaycanda bu abituriyentlər kolleclərə imtahansız qəbul oluna biləcəklər

Azərbaycanda ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun ümumi qaydalarına dəyişikliklərin edilməsi təklif edilir. SİA-nın məlumatına görə, bununla bağlı "Təhsil haqqında" qanuna dəyişikliklər edilir. Qanunun hazırkı variantına əsasən, bu qanunun 26.5-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu vətəndaşların təhsil hüququnu tam təmin etməklə, müvafiq təhsil səviyyəsinə uyğun olan təhsil proqramlarını daha yaxşı mənimsəmiş qabiliyyətli və hazırlıqlı abituriyentlərin ixtisası və təhsil müəssisəsini sərbəst seçimi əsasında, müsabiqə yolu ilə həyata keçirilir. İstisnanın nəzərdə tutulduğu həmin maddəyə (26.5-ci) görə, beynəlxalq fənn olimpiadalarının qalibləri istənilən ixtisaslar, respublika fənn olimpiadalarının, yüksək səviyyəli beynəlxalq müsabiqələrin və yarışların qalibləri müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunurlar.

Təklif edilən yeni dəyişiklikdə isə beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin də orta ixtisas təhsili müəssisələrinə müsabiqədənkənar qəbul olunması təklif edilir. Hazırda bu kateqoriyadan olan abituriyentlər ali məktəblərə müsabiqədənkənar qəbul olunurlar. Yeni dəyişikliklərə əsasən, beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş şərtlər yerinə yetirilməklə, təhsil aldıqları dildə tədris olunan ixtisaslar üzrə ali təhsil müəssisələri ilə yanaşı, orta ixtisas müəssisələrinə də müsabiqədənkənar qəbul olunacaqlar.



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## Emin Millinin "etirafı" - dağıdıcılıq meydanından imtina, yoxsa özünüsığorta məqsədi?

***"Meydan" TV-nin sabiq rəhbəri, hazırda Almaniyada yaşayan Emin Millinin Facebook sosial şəbəkədəsindəki üzristəmə faktı müxtəlif səmtlərə yozula bilər. Çünki burada yalnız birtərəfli qaydada peşman olmaq məsələsi dayanmayıb və o cümlədən, ikibaşlı ifadələr istər-istəməz sözügedən statusu oxuyanların diqqətini çəkib. Maraqlıdır ki, bir sıra mətbuat səhifələri bunu, bilavasitə onun dövlət başçısından üzr istəməsi ilə əlaqələndiriblər və əgər belə olsaydı, səmimiyyət daha aşkar görünə bilərdi. Amma...***

Amma onun AXCP sədri Əli Kərimlidən də üzr istəyərək, bu dəfə özünü bitərəf kimi təqdim etməsi, ortada qeyri-səmimiliyin olduğunu daha çox qabartmış olur. Bu, Emin Millinin "nə ətdir, nə də balıq" prinsipində qalmasına bir işarətdir.

Əslində isə, "Meydan" TV-nin sabiq rəhbəri hələ aylar öncə - dövlət başçısının inqilabi islahatlarını təqdir edən yazısı ilə çıxış etdiyi vaxt, hətta ondan müsahibə götürmək marağında olduğunu deyərkən, özündə güc tapıb, təmsil olunduğu qaragüruhdan publik şəkildə imtina etsəydi, onun sonuncu statusundan hər hansı bir səmimiyyət ştrixlərini sezmək olardı. Amma təəssüf ki, o, daxilindəkini birdəfəlik silib-atmaq gücünü yenə də özündə tapa bilmədi. Misal üçün, o, zaman-zaman içindəki nifrət hisslərini gizlədə bilmədiyinə görə, guya ki, üzr istəyib - həm iqtidardan, həm də müxalifətdən (?-R.N.)... Sual yaranır: ay E.Milli, onda sənin üzristəmə cəhdin nəyə yaradı ki? Hakimiyyət xalqla təmasını daha da artırıb, dağıdıcı müxalifəti xarici dairələrə deyil, xalqa, dövlət maraqlarına xidmət etməyə, sivil mübarizəyə səsləyib, bəlli müxalfətçiləri, o cümlədən, Ə.Kərimlini qaragüruhçuluqdan, məlum söyüş kampaniyalarından çəkindirməyə çağırıb və s. Yəni E.Milli nifrətin quruculuq deyil, dağıdıcılıq rolu oynadığını, müəyyən mənada, etiraf etsə də, sözünü açıq şəkildə radikal müxalifət "liderlərinə" deməyərək, iqtidarı da sözügedən statusunun gözünə qatıb. Bunu üzr istəmək deyil, sadəcə, yaxasını kənara çəkmək adlandırsaq, daha doğru olardı.

Lakin E.Milli bir həqiqəti də dərk etməlidir ki, onun dövlət başçısından da üzr istəməsi arxasında dövlətin humanizm prinsipinin və siyasətinin gerçəkliyi dayanır. Yəni "Meydan" TV-nin sabiq rəhbəri yaxşı bilir, hətta inanır ki, üzr istəsə bağışlanmaq ehtimalı böyükdür! O, bunu bilməsəydi, dərk etməsəydi, heç həmin statusunu yazmazdı da...

Fəqət, siyasətinə qarşı çıxanlara hədə-qorxu gələrək, "hakimiyyətə gələrsək filan edəcəyik, asacağıq-kəsəcəyik" tipli qisasçı fikirləri ilə gündəmdə qalan Ə.Kərimli onu bağışlayacaqmı? Ümumiyyətlə, AXCP sədrinin belə bir insani hisslərə malik olduğuna nə dərəcədə inanmaq olar? Bəlkə də, E.Milli Ə.Kərimlinin onu bağışlaya bilməyəcəyini (!-R.N.) dərk etdiyinə görə, cəbhəçi sədrin xoşuna gedəcək bir cümlə işlədib. O, AXCP sədrinin pasport məsələsinə toxunub və bununla da, özünə, necə deyərlər, barmaq yeri qoyub. Sabah Ə.Kərimli onun yaxasından tutub, "o vaxtlar iqtidardan, dövlət başçısından niyə üzr istədin?" deyə soruşanda, o da qayıdıb desin ki, bəs sənin pasport məsələni də dilə gətirmişəm və s... Hərgah AXCP sədrinin E.Millinin yaxasından tutub həmin sualı vermək imkanı "0" həddindədir...

Başqa tərəfdən, E.Milli özündə cürət tapa bilməyib ki, nifrətin nə qədər təhlükəli və dağıdıcı olduğunu etiraf edərkən, onun təmsil olunduğu cinahdan qaynaqlandığını etiraf etsin. Yəni maraqlıdır ki, "... Ölkəmizdə o qədər nifrət var, o qədər etibarsızlıq var ki, mən artıq bu nifrətin içində boğuluram..." sözlərini yazarkən, o, nəyə görə, bütövlükdə, ölkəni nəzərdə tutub? Nifrət və etibarsızlıq, bilavasitə radikal, dağıdıcı, qaragüruhçu, bir-birlərini həzm etməyən, seçkidə bir-birlərinin xeyirlərinə geri addım atmayan müxalifət "liderlərin" mövcud "simalarında" əks olunmurmu?! Axı bir neçə nəfərin nifrətini bütöv bir ölkənin ayağına yazmaq nə qədər doğru bir seçimdir, ay E.Milli..?

Azərbaycanda yeni hekayə qurmağa da ehtiyac yoxdur, əslində. Bu hekayə hələ illər öncə qurulub və reallığı ilə özünü təsdiq edib. Yeni hekayəni isə, hələ də özlərinə yer tapa bilməyən, bir-birlərini asıb-kəsən, eyni təşkilatı yaradıb, sonradan bir neçə yerə parçalanan radikal, dağıdıcılıq təfəkküründən yaxa qurtara bilməyən müxalifət "liderlər" yazsınlar. Onu da özlərinin xilası üçün, dövlətin xilası üçün deyil. Çünki dövlətin xilası uzaq 1993-cü ildə baş tutub. Yəqin ki, E.Milliyə bunu da xatırlatmağın yeri var.

Hə, sonda onu da qeyd edim ki, E.Milli "Meydan" TV-dən getsə də, özünü azad və sərbəst hiss etsə də, Almaniya kafelərinin birindəki köhnə kresloda oturub, siyasi romantizim fikirlərinə dalsa da, onun içində müəyyən vicdan oyanışını da sezmək olar. Amma nə olardı ki, o, həmin vicdanının səsinə bir az da çox qulaq asaraq, səmimiyyətini daha açıq şəkildə ortaya qoyardı. Təəssüf ki, o, bu məsələdə səmimiliyini deyil, ikibaşlı oyununu oynayıb və üzristəmə adı altında özünüsığorta meyillərini sərgiləyib. Buna isə üzristəmə adını qoymaq heç də məntiqli görünmür...

# Britaniya qərəzi UEFA və Azərbaycan reallığına təsir etmədi!

***Sirr deyil ki, son illər Azərbaycanın inkişaf və tərəqqi yolunda əzmlə irəliləməsi bir sıra bəlli siyasi mərkəzləri narahat edir. Həmin mərkəzlərə bağlı olan media qurumları sifarişlər əsasında qərəzli münasibətlərini beynəlxalq ictimai rəyin diqqətinə çatdırmağa cəhdlər göstərirlər. Söz yox ki, burada Azərbaycanı istəməyən qüvvələr daha çox canfəşanlıq göstərirlər ki, bütün bunların arxasında erməni lobbisinin də dayanması şübhə doğurmur. Siyasi korrupsiya vasitələri sayəsində, eləcə də, sifarişlərini reallaşdırmaqdan ötrü kisələrinin ağzını açan anti-Azərbaycan xarakterli məkrli qüvvələr bu dəfə Bakıda keçiriləcək futbol üzrə UEFA liqasının finalına qarşı heç bir əsası olmayan fikirlər yayırlar. Əslində, belə çirkin kampaniyalar daha öncələr də baş verib və bu barədə yazının sonrakı hissələrində bəzi xatırlatmaları edəcəyik.***

**UEFA finalına qarşı verilən qərəzli rəylərin sahibləri dolayı yolla məlum dairələr tərəfindən satın alındıqlarını sübuta yetirmiş olurlar**

Təəssüfedici və hiddət doğurucu məqamlardan biri də budur ki, belə məkrli plana Böyük Britaniyanın rəsmi siyasi dairələri də qoşularaq, əllərində faktlar və sübutlar olmadan, qərəzli bəyanatlar səsləndirirlər. Hətta Britaniya XİN-in bir sıra təmsilçiləri heç bir diplomatik çərçivəyə sığmayan davranışları ilə subyektiv fikirlərini ictimailəşdirməklə, necə deyərlər, odun üzərinə benzin tökməyə cəhdlər göstərirlər. Onlar da, belə bir əhəmiyyətli idman tədbirinin guya Azərbaycanda keçirilməsinin məqsədəuyğun olmadığı barədə rəy formalaşdırmağa çalışırlar ki, buradan həmin dairələr barədə digər mülahizələr doğur. Daha dəqiq desək, UEFA Avropa liqasının finalına qarşı verilən qərəzli rəylərin sahibləri, dolayı yolla, məlum dairələr tərəfindən satın alındıqlarını sübuta yetirmiş olurlar. Buna isə siyasi korrupsiya da demək mümkündür!

Əslində, yalnız idman tədbirləri deyil - siyasi, iqtisadi, sosial, mədəniyyət və s. çoxsaylı tədbirlərə ev sahibliyi edən Azərbaycan sübut edir ki, dövlətimizə qarşı törədilən cəhdlər boş və mənasızdır. Çünki Azərbaycan dövləti inkişaf və tərəqqi yolunu müstəqil, qətiyyətli siyasəti ilə davam etdirir və heç bir qərəz, şantaj və qarayaxma kampaniyaları bu siyasətə qarşı tab gətirmir. İstər mühüm enerji və nəqliyyat layihələrinin reallaşdırılması, istər digər qlobal xarakterli tədbirlərin keçirilməsi, istər 2012-ci ildə "Eurovision", istər 2015-ci ildə Avropa Oyunları, istərsə də 2016-cı ildə İslam Həmrəyliyi Oyunları və digər tədbirlər ərəfəsində Azərbaycana qarşı süni şəkildə təşkil olunmuş qarayaxma kampaniyasının bir hədəfi olub - ölkəmizin uğurlarına kölgə salmaq cəhdi...

**Real faktlar qərəzli iddiaların üzərindən çalın-çarpaz xətlər çəkir**

Məlumdur ki, qərəzli dairələr belə məsələlərdə dərhal insan hüquqları və qanunun aliliyi məsələsini qabardırlar. Lakin Azərbaycan dəfələrlə sübut edib ki, bu iddiaların heç bir əsası yoxdur. Əksinə, Qərb ölkələrinin özündə insan haqlarının pozulması və s. azadlıqların məhdudlaşdırılması ilə bağlı faktlar və sübutlar kifayət qədərdir. Bu barədə ölkə mediasında yüzlərlə dəlillər mövcuddur.

Maraqlıdır ki, qərəzlər sırasında cılız və məntiqsiz iddialar səslənir. Məsələn, iddia olunur ki, viza rejimi problem yaradır. Lakin sadələşdirilmiş viza rejimi bu iddiaları tam təkzib edir və hər bir xarici vətəndaşın çox asan şəkildə viza almasına şəraiti yaradılır. Digər iddia guya otellərin baha olması ilə




bağlıdır. Fəqət, Bakıda 20-30 dollardan başlayaraq, daha yüksək qiymətlərə otellər on minlərlə idman azarkeşini qəbul etməyə imkan yaradır. Biz, öncəki böyük idman yarışlarında, çempionat və turnirlərdə idmançı və azarkeş ordularına necə şəraitlərin yaradılmasını sübut edən faktları ortaya qoya bilərik. Onu da qeyd edək ki, həmin yarışlarda elə Böyük Britaniya idmançıları da iştirak edərək, Azərbaycanda yaradılan münbit şəraitə heyran qaldıqlarını bildiriblər. Britaniya mətbuatı AZAL-da qiymətlərin baha olması barədə də iddialar irəli sürüb. Ancaq AZAL hazırda Böyük Britaniyaya və geriyə olan reyslərə beynəlxalq mülki aviasiyada mümkün olan ən aşağı qiymətlərdən başlayaraq, daha yüksək qiymətlər tətbiq edir. AZAL-ın təklif etdiyi qiymətlər mövcud beynəlxalq qiymətlərdən daha aşağıdır. Həmin fakt isə sözügedən iddiaların üzərindən çalın-çarpaz xətlər çəkir.

Yeri gəlmişkən, Bakıda keçiriləcək final yarışında "Arsenal" firbol klubunun erməni əsilli idmançısı Henrix Mxitaryanın ölkəmizə gəlməsinə əngəllər yaranacağını da iddia edən Britaniyanın məlum dairələri, görünür, unudublar ki, nəinki Mxitaryan, hətta Ermənstanın idmançıları Bakıda keçirilən müxtəlif adda idman turnirlərində iştirak ediblər və onların Azərbaycana gəlmələrinə qarşı heç bir əngəl, sədd və baryer qoyulmayıb. Hətta dövlət başçısı onlara şəxsən mükafat təqdim edib və heç bir insident və xoşagəlməz hal qeydə alınmayıb. Bu baxımdan, "Arsenal" klubunun oyunçusu, erməni əsilli H.Mxitaryanın da Azərbaycana gəlməsində heç bir problem yoxdur və ən yüksək təhlükəsizlik zəmanəti verilib. Məlum sifarişləri canfəşanlıqla təbiq etməyə çalışan məlum qərəzli dairələr, birdəfəlik dərk etməlidirlər ki, sabitlik və cinayətkarlığın səviyyəsinə görə Azərbaycan dünyanın ən əlverişli ölkələri ilə bir sırada durur!

**UEFA finalının vaxtı və yeri təyin olunanda heç kim bu komandaların İngiltərəyə məxsus olacağını ehtimal etmirdi**

Beləliklə, tam əminliklə deyə bilərik ki, Azərbaycan əvvəlki dövrdə də, sübut edib ki, istənilən böyük beynəlxalq tədbiri ən yüksək səviyyədə təşkil etməyə qadirdir. Məkrli planlarını realizə edən qruplar anlamalıdırlar ki, hətta UEFA liqasının finalının vaxtı və yeri təyin olunanda, heç kim bu komandaların İngiltərəyə məxsus olacağını ehtimal etmirdi. Digər tərəfdən, təcrübə göstərir ki, bir çox hallarda finala çıxan komandalar oyunlarını öz vətənlərindən min kilometrlərlə uzaq ölkələrdə keçiriblər və heç vaxt belə iddialar irəli sürülməyib və kampaniyalar təşkil edilməyib.

Başqa tərəfdən, britaniyalıların özləri də yaxşı bilirlər ki, kifayət qədər sərt xarakteri, iğtişaşlar törətmək təcrübəsi olan ingilis fanatlar bir o qədər də arzuolunan qonaq deyillər. Buna baxmayaraq, Azərbaycan bütün məsələləri ən yüksək səviyyədə təşkil etməyə hazırdır və bunu dəfələrlə əməldə sübut edib. Bütün bunlar sübut edir ki, xaricdəki maraqlı dairələr Azərbaycanın dünyada nüfuzunun artmasından, onun yüksək səviyyəli iqtisadi, siyasi və humanitar mərkəzə çevrilməsindən narahatdırlar. Məlum qərəzlər isə, sübut edir ki, irəli sürülən iddialar da növbəti mühüm tədbir ərəfəsində Azərbaycanın beynəlxalq nüfuzunu ləkələmək məqsədi güdür. Ancaq bu məqsədlər nəticəsiz qalır və bundan sonra da qalacaq!

**Azərbaycan XİN: "İdman yarışlarını izləmək məqsədilə ölkəmizə gələn çoxsaylı əcnəbi ölkə vətəndaşları Azərbaycanda ictimai asayişin təmin olunması, mövcud olan sabitlik və təhlükəsizlik mühiti və bu kimi böyük miqyaslı idman tədbirlərinin təşkilatçılığından məmnun qalmışlar"**

"UEFA Avropa Liqasının 29 mayda Bakıda keçiriləcək final oyunu ərəfəsində Böyük Britaniya Xarici İşlər Nazirliyinin yaydığı Azərbaycana aid səyahət tövsiyələri anlaşılan deyil və təəccüb doğurur". Bu fikirləri isə, Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bildirib. XİN sözçüsünün sözlərinə görə, Azərbaycanda təhlükəsizlik və sabitlik tam şəkildə təmin olunub və ölkəmiz çoxsaylı mötəbər beynəlxalq tədbirlərə, o cümlədən, beynəlxalq miqyaslı idman yarışlarına ev sahibliyi edir. "Bu sırada Birinci Avropa Oyunları, Dördüncü İslam Həmrəylik Oyunları, illik əsasda keçirilən "Formula 1" Bakı Qran- Prisi və UEFA Çempionlar Liqası çərçivəsində 2017-ci ildə "Qarabağ" - "Çelsi" futbol oyunu qeyd oluna bilər. Bu idman yarışlarını izləmək məqsədilə ölkəmizə gələn çoxsaylı əcnəbi ölkə vətəndaşları Azərbaycanda ictimai asayişin təmin olunması, mövcud olan sabitlik və təhlükəsizlik mühiti və bu kimi böyük miqyaslı idman tədbirlərinin təşkilatçılığından məmnun qalmışlar" deyə bəyanatda xatırladılır.

Həmçinin, bildirilib ki, Azərbaycan turizm ölkəsidir və hər il ölkəmizə çoxsaylı əcnəbi turistlər səfər edir. Ölkəmizin malik olduğu digər müsbət xüsusiyyətləri ilə bərabər Azərbaycanda hökm sürən əmin-amanlıq, sabitlik və təhlükəsizlik əcnəbi turistləri cəlb edən vacib amillər sırasındadır. Nəticə olaraq isə, əminliklə vurğulamaq mümkündür ki, istər Britaniya mediasının bəzi qərəzli dairələri və bu ölkənin siyasi mərkəzləri mötəbər futbol hadisəsi ərəfəsində aldıqları sifarişləri realizə etməyə cəhd göstərdilər, amma bu dəfə də məğlub oldular. Xüsusilə, mayın 29-da keçiriləcək UEFA Avropa liqasının finalında onlar nə qədər yanıldıqlarını bir daha dərk edəcəklər.

***Rövşən NURƏDDİNOĞLU***



**Təhmasib Novruzov**

# "Gülüm ağa"nın uşaqları

***Çox düşünürük, çox daşınırıq ki, əcəba, bizim məmləkətdə nədən başqa sivil ölkələrdə olduğu kimi milli və dövlətçilik mənafelərinə xidmət edən siyasi müxalifət formalaşa bilmir? Söz yox, yazının əvvəlində bu sualı oxuyan, özünü müxalifət hesab edən bəzi siyasət dəllalları dərhal deyəcəklər ki, hakimiyyət imkan vermir, hakimiyyət diktatorluq edir, hakimiyyət siyasi rəqibindən qorxur(?) və sairə, və ilaxır.***

Biz reallıqlara əsaslanırıq və reallıq isə, onu deməyə bizi məcbur edir ki, indiki iqtidar hamıdan çox ciddi siyasi müxalifətin olmasını istəyir. İstəyir və buna şərait də yaradır. Nə yazıqlar ki, müxalifət meydanını inhisara alan qüvvələr inhisarçılıqlarını elə həddə çatdırıblar ki, yeni qüvvələr meydana atılmaqdan, sadəcə, ehiyatlanır. Çünki bu yeni qüvvələr, ya gərək arxiv iyi verən əzəli müxalifət oyunbazlarının çaldıqları havaya oynasın, ya da onları şər-böhtanla sıxışdırıb elə əzirlər ki, bir də ayağa qalxmağa özlərində taqət tapa bilmirlər. Yəni hakimiyyəti diktaturaçılıqda günahlandıran bu zavalsızlar özləri müxalifət düşərgəsində elə diktatura yaradıblar ki, ora daxil olmaq da, orda sərbəst, azad siyasi mövqe ortaya qoymaq da mümkün deyil və belə davam eləsə, hələ uzun müddət də mümkün olmayacaq.

Əslində, bu müxalifət diktaturasının tarixi Əli Kərimli deyilən baş siyasi biznesmenin Elçibəyi zərərsizləşdirdikdən dərhal sonra sərgilədiyi siyasi oyunlardan başlayıb. Baxın, indi on-on iki partiyaya bölünmüş AXC bir zamanlar həm sağlam siyasi mövqeyi ilə, həm də təşkilatdaxili sağlam mühitlə cəmiyyətin ciddi siyasi qurumu kimi böyük nüfuza malik idi. Amma elə ki, Əli gəldi bu qurumun başına, yarpaq tökümü vüsət aldı. Siyasi fəaliyyətini dayandıran kim, başqa siyasi quruma keçən kim, yeni siyasi təşkilat yaradıb müstəqil fəaliyyətə start verən kim! Bütün bunların da bir səbəbkarı var ki, o da özünü "milli birlik" carçısı kimi ortaya atan həmin kəsin "fəaliyyəti"nin nəticəsidir. Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin önündə gedən, bütün xalqı bu amal ətrafında birləşdirən bir təşkilatın indiki halı nə qədər acınacaqlıdır! Səbəb? Qeyri-sağlam müxaliflik, siyasi fəliyyətinin anti-dövlət, anti-milli düşüncə, bir az da dəqiq desək, siyasi biznesini ölkəsinin mənafelərinin qurban verilməsi üzərində quran siyasət dəllallarının hələ də yerlərində oturdulmaması! Vəssalam! Çox sadə, çox bəsit olan bu anlayışı, nə yazıqlar ki, Əli kimilərin nə mal olduqlarını bilmələrinə rəğmən, hələ də yanlarında quyruq bulayanların tapılması ölkəsini, dövlətini sevən hər kəsi ciddi narahat etməlidir.Yəni Əlinin vurulmuş korrupsiyaçı məmurlardan, xaricdəki anti-Azərbaycan qüvvələrdən, o cümlədən, erməni lobbisindən aldıqları milyonlara, az payla da olsa şərik çıxıb, onun havasına oynayanlar, əslində, ölkəmizdə demokratiyanın daha sürətlə, sağlam düşüncə əsasında inkişafına əngəl törədirlər ki, bu da, son nəticədə, cəmiyyətimizin ümumi inkişafına xələl gətirən başlıca amillərdən biri, hətta birincisidir. Əlini ağa hesab edib, onun çaldığı lambadalara, çastuşkalara, hətta "dasnı çorş"lara süzən bu zavallılar onun iç üzünü nə vaxt görə biləcəklər? Milli şərəfini, ləyaqətini ayaqlar altına atıb, yadların qoltuğuna sığındığı açıq-aşkar ortada olduğu halda, hələ də bu adamların havalarını dəyişmək, milli havaya yönləmək istəyində olmamaları, həm təəssüf, həm də təəccüb doğurur. Sayları çox olmasa da, onlar da bu ölkənin sakinləridir və vətəndaş olmağa can atmaq onların borcudur. Bu borcu yerinə yetirməməkdə davam edirlərsə, deməli, heç vaxt vətəndaş ola bilməyəcəklər. Çünki ağaları belə istəyir. Belədə bizim məşhur bir atalar sözünü xatırlatmaqdan başqa yolumuz qalmır: "Ağası gülüm olanın, başına külüm olar!" Bu "Gülüm ağa"nın uşaqlarının başlarına tökülən "küldən" gözləri ayışanda, gözlərini ovxalayıb dünyaya açıq gözlə baxmağa can atanda, açıq gözlə baxıb həqiqəti dərk edəndə, inanacığıq ki, arzusunda olduğumuz gerçək milli müxalifətimiz yarana bilər. Burda bir "inşaallah" deyək ki, Allah da köməyini bu millətdən əsirgəməsin. Amin deyən dillər var olsun!

# Ölüm cəzasına qarşı bəşəriyyətin mübarizəsi




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

***Məlum olduğu kimi, ölüm cəzası ən qədim cəza növlərindən biridir. O, hələ müasir anlamda, cinayət hüququ yaranmamışdan öncə də insanlara qarşı tətbiq edilirdi. Hüquq elmləri doktoru, professor Aytən Mustafayeva yazır: "Əgər "ölüm cəzası" anlayışından danışırıqsa, bu, ilk baxışda, tamamilə başa düşülən kimi görünür, yəni insanın həyatdan məhrum edilməsi. Lakin insan müxtəlif səbəblərdən həyatdan məhrum ola və ya edilə bilər. Məsələn, insanlar təbii qüvvələrin təsiri nəticəsində (sel, zəlzələ, sürüşmə, tufan və s.), aclıqdan, soyuqdan, məişətdə və istehsalatda bədbəxt hadisələrdən, öz ehtiyatsızlıqları ucbatından həlak olurlar. Adamlar intihar nəticəsində də həyatlarını itirirlər.***

Nəhayət, onlar müxtəlif cinayətlər nəticəsində, qəsdən adamöldürmədən başlamış ehtiyatsız hərəkətlərə qədər: texniki təhlükəsizlik, yol hərəkəti qaydalarının pozulması, müxtəlif təhlükəli maddələr və əşyalarla səhlənkar davranış (məsələn, partlayıcı radioaktiv, tez alışan maddələr, silah, döyüş sursatları və s.) nəticəsində də, həlak olurlar." Y.A.Andrianovanın qeyd etdiyi kimi, insanlar bir-birini müharibələrdə, millətlərarası münaqişələr zamanı, habelə, qisasçılıq zəminində öldürürlər. Lakin həyatdan məhrumetmənin bütün bu nümunələrinin ölüm cəzası ilə sosial və hüquqi baxımdan, heç bir ümumi bağlılığı yoxdur. Bəs hüquqi anlayış mövqeyindən ölüm cəzası nədir?

BMT Nizamnaməsi öz qarşısına insan və vətəndaş hüquq və azadlıqlarının siyahısını tərtib etmək vəzifəsi qoymamışdı. Lakin BMT Nizamnaməsinin mətnindən, belə aydın olurdu ki, bu hüquq və azadlıqlar "sosial tərəqqiyə və həyat şəraitinin yaxşılaşdırılmasına" kömək etməli, "təkcə siyasi deyil, həmçinin, iqtisadi və şəxsi hüquq və azadlıqları da əhatə etməlidir". Qeyd etməliyik ki, mahiyyətcə, beynəlxalq münasibətlər praktikasında insanın əsas hüquq və azadlıqları haqqında geniş müddəalar spektrinin təsbit edildiyi ilk sənəd 1948-ci il dekabrın 10-da BMT Baş Assambleyası tərəfindən qəbul edilən Ümumdünya İnsan Hüquqları Bəyannaməsidir. İnsanın ayrılmaz və doğulandan ona məxsus olan əsas hüquqlarından ən vacibi yaşamaq hüququdur. Adıçəkilən Bəyannamənin 3-cü maddəsində bəyan edilir ki, hər bir insanın "yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ var".

Qeyd etmək istəyirik ki, Mülki və Siyasi Hüquqlar haqqında 1966-cı il tarixli Beynəlxalq Paktda daha geniş tərif verilmişdir: "Yaşamaq hüququ hər bir insanın ayrılmaz hüququdur. Bu hüquq qanunla qorunur. Heç kim özbaşına həyatdan məhrum edilə bilməz" (1-ci hissə, 6-cı maddə). Nəzərdən keçirdiyimiz problem kontekstində aşağıdakıları qeyd etmək yerinə düşər. Göstərilən maddə BMT-nin İnsan Hüquqları Komissiyasında müzakirə edilərkən, bildirildi ki, hər bir dövlət insanların həyatını həm dövlət hakimiyyəti orqanları tərəfindən, həm də ayrı-ayrı şəxslər tərəfindən qanunsuz hərəkətlərdən müdafiə etməyə borcludur. Bu şəraiti nəzərə almaqla, Mülki və Siyasi Hüquqları haqqında Beynəlxalq Pakta insanın həyatını qorumaq istiqamətində dövlətin öhdəlikləri haqqında müddəa salmaq təklif edildi. Paktın 6-cı maddəsində həyatdan məhrumetmənin dövlətin həyatı qorumaqla bağlı ümumi öhdəliyinin pozulması sayılmadığı halların müəyyən edilib-edilməməsinin lazımlılığı məsələsi də xeyli müzakirə edildi. Lakin bu məsələ üzrə yekdil fikrə gələ bilməyən Komissiya 6-cı maddədə, ümumiyyətlə, yaşamaq hüququnun məhdudlaşdırılma hallarını sadalamamağı qərara aldı, çünki onları tam ifadə etmək mümkün deyildi. Ona görə də, Paktın 6-cı maddəsində yığcam şəkildə aşağıdakı müddəanı göstərmək qərara alındı: "Heç kim həyatdan özbaşına məhrum edilə bilməz".

Düzdür, Komissiya "özbaşına" terminini dəqiqləşdirmədi və heç izah da etmədi. Bununla belə, düşünmək olar ki, o, "qanunsuz, ədalətsiz, əsassız" mənalarını verir. Əlbəttə ki, bu terminin konkretləşdirilməməsi, bir çox mütəxəssislərin də hesab etdikəri kimi, Paktın müddəalarının çatışmazlığı ilə əlaqədardır, çünki "özbaşına" termini bu və ya digər dövlət tərəfindən də, öz növbəsində, özbaşına təfsir edilə bilər.

Beynəlxalq birlik ölüm cəzasının tətbiqini yuxarıda göstərilən şərtlərlə əlaqələndirərək, onun cəza növlərindən biri kimi tətbiq edilməsini istisna etməyib və indi də istisna etmir.

Lakin gəlin, 1950-ci il noyabrın 4-də Romada imzalanmış İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasına müraciət edək. Burada yaşamaq hüququ haqqında məsələ bir qədər başqa cür təqdim olunur. Belə ki, bu Konvensiyanın 2-ci maddəsində göstərilir:

"1. Hər bir şəxsin yaşamaq hüququ qanunla qorunur. Törədilmiş cinayətə görə məhkəmə tərəfindən irəli sürülmüş və belə bir cəzaya görə qanunla nəzərdə tutulan ölüm hökmünün icra edilməsindən başqa, heç kim həyatdan qəsdən məhrum edib bilməz.

2. Həyatdan məhrumetmə aşağıda göstərilən hallarda hökmən zəruri tətbiq vasitəsi olanda, bu maddənin pozulması kimi nəzərdən keçirilmir:

(a) hər hansı şəxsin qanuna zidd zorakılıqdan müdafiəsi üçün;

(b) qanuni əsasda həbs olunmuş şəxsin qanuni saxlamlması və qaçışının qarşısının alınması üçün;

(c) qanuna müvafiq olaraq, qiyam və ya iğtişaşın qarşısını almaq üçün".

Hər şeydən öncə, qeyd etmək lazımdır ki, bu Konvensiyanın 2-ci maddəsi Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müvafiq 6-cı maddəsindən fərqli olaraq, yaşamaq hüququnu təsbit etmir. O, bu və ya digər dövlətin hakimiyyət orqanlarının üzərinə hər kəsin yaşamaq hüququnu müdafiə etmək öhdəliyi qoyur və həyatdan qəsdən məhrumetməni qadağan edir. Avropa Konvensiyasının 1-ci bənd 2-ci maddəsindəki müddəaları nəzərə almaqla, güman etmək olar ki, yaşamaq hüququnu müdafiə etmək öhdəliyi, ilk növbədə, qanunvericinin üzərinə düşür ("yaşamaq ... hüququ qanunla qorunur").

M.L.Entinin fikrincə, 2-ci maddənin ilk cümləsi təkcə qanunvericiyə ünvanlanmayıb. O, hər şeydən öncə, 2-ci maddənin belə bir məhrumiyyətə yol verdiyi hallar istisna olmaqla, Konvensiyanın iştirakçısı olan dövlətlər üçün ümumi öhdəlik nəzərdə tutur. İctimai təhlükəsizliyin qorunması vəzifəsini icra edərkən, hakimiyyət ayrı-ayrı şəxslərin həyatını qorumalıdır. Lakin eyni zamanda da, digər şəxslərin hüquqları bu halda pozulmamalıdır. Qısaca olaraq, məsələn, əgər dövlət qatilin yaşamaq hüququnu müdafiə edirsə, bununla da o, dövlət tərəfindən öz həyatının qorunması hüququndan, faktiki olaraq, məhrum olan qatilin qurbanının yaşamaq hüququnu pozur.

A.Mustafayeva göstərir ki, artıq qeyd etdiyimiz kimi, Konvensiyanın 2-ci maddəsində həyatdan məhrumetməyə qadağanın tətbiq edilmədiyi bir sıra hallar göstərilir. Belə ki, bu maddənin 1-ci bəndində qadağanın ifadə tərzində istisna var, məhz şəxs "törədilmiş cinayətə görə, məhkəmə tərəfindən irəli sürülmüş və belə bir cəzaya görə qanunla nəzərdə tutulan ölüm hökmünün icra edilməsi naminə" həyatdan məhrum edilir. Deməli, olüm hökmünün icra edilməsi və ya şəxsin ölüm cəzasının hələ də tətbiq edildiyi dövlətə sürgün edilməsi Konvensiyanın 2-ci maddəsinin pozulması demək deyil" (Avropa Konvensiyasının aşağıda təhlil edilən 6 nömrəli Protokolunun nəzərə alınması ilə).

Nəzərə çatdıraq ki, Konvensiyanın 2-ci maddəsinin ikinci bəndin-həyatdan məhrumetmənin onun müddəalarının pozulması kimi nəzərdən keçirilmədiyi daha bir neçə hal vardır. Bütün bunların hamısı müəyyən məqsədlər naminə güc təbiqi ilə əlaqədardır, lakin bu zaman elə bir güc "mütləq lazım" olmalıdır. Başqa, sözlə desək, tətbiq olunan güc tədbirləri və güdülən hədəf arasında müəyyən nisbət, daha dəqiq isə, müəyyən proropsionallıq olmalıdır. Bundan başqa, güdülən hədəflər təhlil edilən maddənin 2-ci bəndinin (a), (b) və (c) yarımbəndlərində adı çəkilənlərdən biri olmalıdır. Onu da nəzərə almaq vacibdir ki, "mütləq lazım" sözləri elə təfsir edilməlidir ki, güc və güdülən hədəflər (maraqlar) arasında olan qeyri-mütənasiblik mütləq olmalıdır. Bu qanun müddəasına əsasən, göstərilən vəziyyətlərdə də həyatdan bilərəkdən məhrumetmə tətbiq edilməməlidir. Belə ki, (a), (b) və (c) yarım-bəndlərində göstərilən hallarda hakimiyyəti həyatdan məhrumetmə kimi "qeyri-mütənasib" münasibətdən çəkindirən Konvensiya, şübhəsiz ki, vətəndaşları digərlərinə qarşı cinayəkar niyyətlərdən dolayı yolla qorumaq məqsədi daşıyır. Bəzən o, dövlətlərə qanuna müvafiq olaraq (Konvensiyanın 2-ci maddəsinin 1-ci bəndi), ölüm hökmü əsasında cinayətkarların həyatdan məhrum edilməsi hüququnu həvalə edir.

Q.Şayxutdinovanın fikrincə, iştirakçı dövlətlər ölüm cəzasının ləğv olunması və heç kimin ona məhkum edilə bilməzliyi barədə razılığa gəlmişlər (1-ci maddə). Eyni zamanda, 6 nömrəli Protokolun 2-ci maddəsinə əsasən, dövlət öz qanunvericılıyində müharibə, yaxud müharibə təhlükəsi zamanı törədilən əməllərə görə ölüm cəzası nəzərdə tuta bilər. Bu halda, bu cür cəza yalnız qanunla müəyyənləşdirilmiş hallarda və onun müddəalarına uyğun olaraq, mümkün ola bilər. Dövlət bu barədə Avropa Şurasının Baş katibinə məlumat verməlidir. Nəzərdən keçirilən Protokolun 2-ci maddəsindəki müddəalardan belə çıxır ki, dövlət, hətta bu sənədin təsdiq edilməsindən sonra belə, 2-ci maddədə təsbit edilən hallarda ölüm cəzası tətbiq edə bilər. Dövlətin sonradan müvafiq qanunvericiliyi dəyişdirmək və bu barədə Avropa Şurasının Baş katibinə xəbər vermək hüququ var. Konvensiyanın 15-ci maddəsinə əsasən, ölüm cəzasından geri çəkilməyə yol verilmir (6 nömrəli Protokolun 3-cü maddəsi). Bu müddəanın Protokolun 2-ci maddəsi ilə müqayisə edilməsi, belə bir nəticəyə gətirir ki, ölüm cəzası müharibə zamanı və labüd müharibə təhlükəsi halında, yalnız o halda tətbiq edilə bilməz ki, belə bir imkan dinc dövrdə nəzərdə tutulmuş olsun. Mövcud qanunvericiliyi müharibə zamanı dəyişmək olmaz. Bundan başqa, 6 saylı Protokolun 4-cü maddəsi onun müddəalarına hansısa təshihlər edilməsinə icazə vermir. Bütün bu deyilənlərə əsasən, qeyd etmək lazımdır ki, 6 saylı Protokolun ölüm cəzasını ləğv edən 1-ci maddəsi Avropa Konvensiyasının Yaşamaq Hüququ haqqında Konvensiyasının 2-ci maddəsi ilə qarşılıqlı əlaqədə nəzərdən keçirilməlidir. Buradan belə çıxır ki, Protokolun iştirakçısı olmaq istəyən hər bir dövlət, hər şeydən əvvəl, öz cinayət qanunvecriciliyindən ölüm cəzasının tətbiqinə imkan verən müddəaları çıxarmalıdır. Protokolun 1-ci maddəsinin ikinci müddəası ("Heç kim ölüm cəzasına məhkum edib və edam oluna bilməz") təkcə öhdəliyi deyil, həm də hüququ ehtiva edir: hər bir şəxsin ölüm cəzasına məhkum edilməmək və öldürülməmək hüququ var.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 14 may


## Ömrü uzadan 7 tövsiyə



Tanınmış amerikalı həkim-kardioloq Klayd Yansi insanın uzunömürlü olmasını təmin edə biləcək tövsiyələr tərtib edib. Həkimin fikrincə, insan orqanizmi əvvəlcədən uzun ömür sürməyə proqramlaşdırılıb. Ömrü qısaldan sağlamlığa ziyan vuran vərdişlərdir.

AZƏRTAC "MedikForum"a istinadla həmin qaydaları təqdim edir. Klayd Yansinin fikrincə, bu qaydalar insanın 90-cı və 100-cü yubileyini qeyd etməyə kömək edə bilər.

Fiziki fəallıq. Həkim qaçış, üzgüçülük, intensiv yerimə, idman oyunları ilə məşğul olmağı tövsiyə edir. Kardioloq bildirir ki, fiziki fəallığın çatışmazlığı insanın ömrünü 4 il qısaldır. Ürək xəstəlikləri və ya insult azhərəkətli adamlarda daha çox inkişaf edir.

Xolesterini nəzarətdə saxlamaq. Xolesterinin miqdarı artması damarlarda ürək-damar patologiyaları riskini artıran düyünlərin əmələ gəlməsinə səbəb olur. Odur ki, xolesterinin 5 vahiddən yuxarı qalxmasına imkan vermək olmaz.

Rasiona diqqət yetirmək. Uzun ömür sürmək üçün rasiondakı şirniyyat, fastfud və qazlaşdırılmış içkiləri məhdudlaşdırmaq lazımdır. Sellüloz, dənli bitkilər, təzə meyvə-tərəvəzi isə çox yemək lazımdır.

Təzyiqin yüksəlməsinə yol verməmək. Yüksək təzyiqi təsadüfən "sakit qatil" adlandırmırlar. Arterial hipertenziyası olan insanlarda insult riski 40 faiz, infarkt ehtimalı isə 25 faiz yüksəkdir. 45 yaşına çatandan sonra təzyiqi nəzarətdə saxlamaq xüsusilə vacibdir.

Çəkinin artmasına yol verməmək. Həkim-kardioloq xatırladıb ki, piylənmə ürək və insult xəstəliklərinin yaranmasının əsas səbəbidir. Artıq çəki ömür müddətini 5 il qısaldır.

Diabetin profilaktikasını aparmaq. Diabetdən əziyyət çəkən adamlarda təzyiq, damar, ürək, qan dövranı sistemi ilə bağlı problemlər ehtimalı artır. Piylənməyə yol vermək olmaz, çünki bu xəstəliyin həlledici inkişaf amillərindən biri məhz piylənmədir.

Siqaretçəkmədən imtina etmək. Siqaretçəkmə qlobal miqyasda ölüm amillərinin əhəmiyyət dərəcəsinə görə hipertoniyadan sonra ikincidir. Siqaretçəkmə təkcə bilavasitə tənəffüs sistemi və ağciyər xərçəngi xəstəliklərinə meyilli olan siqaret çəkənləri deyil, həm də siqaret çəkənlərin çevrəsində olan və passiv siqaretçəkmədən əziyyət çəkən insanları öldürür. Klayd Yansi bildirir ki, siqaret çəkən bu zərərli vərdişdən yaxa qurtarandan 15 il sonra onun üçün vaxtsız ölüm riski siqaret çəkməyən insanın ölüm riskinə bərabər olur.

## Yaponiyada dünyanın ən uzun yelləncəyi quraşdırılıb

Yaponiyanın Kitakyuşu şəhərində dairə şəklində quraşdırılmış 163 metr uzunluğunda çoxyerli yelləncək dünyanın ən uzun yelləncəyi kimi "Ginnesin rekordlar kitabı"na daxil edilib. Kyodo agentliyi xəbər verir ki, bu polad konstruksiyada eyni vaxtda 100 nəfər yellənə bilər. Bildirilir ki, yelləncək Kyüçü adasının şimalındakı şəhərin "Hibikinada" əyləncə parkında quraşdırılıb.

"Ginnesin rekordlar kitabı"nın nümayəndələri şəxsən bu konstruksiyanın uzunluğunu ölçdükdən sonra onun dünyanın ən uzun yelləncəyi olduğunu təsdiq ediblər. Bununla əlaqədar rəsmi diplom yerli bələdiyyənin nümayəndəsinə təqdim olunub. Həmin yelləncəyin inşası üçün yerli büdcədən 120 milyon yen (təqribən 1 milyon dollar) vəsait sərf olunub. Bundan əvvəl dünyanın ən uzun yelləncəyinin Niderlanddakı parkda yerləşdiyi və uzunluğunun 133 metrə bərabər olduğu bildirilirdi.

## ELAN

Əlizadə Günay Knyaz qızının adına verilmiş Qurtuluş 93 bağçalı evlərə məxsus evin müqavilə sənədi itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Fiziki tərbiyə və ÇH müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Nəzərov Ümid Qəhrəman oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Riyaziyyat müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Məmmədli Məleykə Elmar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Qaradağ rayonu Sanqaçal qəsəbəsi III massivdə yerləşən Məhyətdin Pərvin Ağasoltan oğlunun adına verilmiş torpağın bələdiyyə sənədləri itdiyi üçün etibarsız sayılır.

## Bakıda paracüdo üzrə beynəlxalq Qran-Pri yarışlarının təntənəli açılış mərasimi olub




Mayın 13-də Bakıda paracüdo üzrə beynəlxalq Qran-Pri turnirinin təntənəli açılış mərasimi olub. Mərasimdə çıxış edən AMPK-nın prezidenti İlqar Rəhimov turnirin "Ruhun zəfəri" devizi altında təşkil olunduğunu deyib. Bildirib ki, bu deviz təsadüfi seçilməyib. Bu ifadə özündə sevgi, dostluq və bərabərliyi təcəssüm etdirir. Qran-Priyə hazırlıq çərçivəsində əlil insanlar da təşkilati işlərə cəlb olunublar. "Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Ölkəmizdə dəfələrlə irimiqyaslı idman yarışları yüksək səviyyədə təşkil olunub. Belə ki, 2015-ci ildə ilk Avropa Oyunlarından iki il sonra təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarında paralimpiyaçılar da yarışları keçirilib. Bu, dövlətimizin başçısı İlham Əliyevin Azərbaycanda Paralimpiya hərəkatının inkişafına göstərdiyi diqqətin nümunəsidir", - deyə AMPK-nın prezidenti əlavə edib.

Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer Azərbaycanda idmana göstərilən dövlət qayğısını yüksək qiymətləndirib və cüdoçularımızın beynəlxalq arenada qazandıqları nailiyyətlərdən danışıb. Turnirin əhəmiyyətini yüksək qiymətləndirən M.Vizer paracüdoçulara uğurlar arzulayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycanın çox zəngin cüdo tarixinin olduğunu vurğulayıb. Nazir deyib ki, idmanın bu növü üzrə bir çox qəhrəmanımız var. Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov cüdo üzrə beynəlxalq yarışların Azərbaycanda keçirilməsinə verdiyi dəstəyə görə Beynəlxalq Cüdo Federasiyasının prezidenti M.Vizerə təşəkkür edib. Nazir müavini ölkəmizdə idmanın inkişafı üçün dövlət tərəfindən mühüm addımların atıldığını diqqətə çatdırıb və paralimpiyaçılarımızın əldə etdikləri nailiyyətləri yüksək qiymətləndirib. Cüdonun inkişafına göstərdiyi xidmətlərə görə, Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vider Paralimpiya Ordeni ilə təltif olunub. Mükafatı AMPK-nın prezidenti İ.Rəhimov təqdim edib. Beynəlxalq Cüdo Federasiyasının prezidenti də AMPK-nın rəsmisini xüsusi plaketlə mükafatlandırıb.

## UEFA Avropa Liqasının finalını İtaliyalı hakimlər idarə edəcək



UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün mayın 29-də Bakıda keçiriləcək final matçını İtaliyadan olan hakimlər briqadası idarə edəcək. UEFA-nın saytında yer alan məlumata görə, mayın 29-da "Arsenal" - "Çelsi" görüşünün idarə olunması Canluka Rokkiyə tapşırılıb. Ona Fillipo Meli və Lorenzo Manqanelli kömək edəcəklər. Dördüncü hakim funsiyasını Daniel Orsato yerinə yetirəcək. Final görüşündə videonəzarət sistemində (VAR) çalışacaq heyətin rəhbəri Massimiliano İrrati olacaq. Ona Marko Quida, Şimon Marçiniak və Pavel Sokolnitski kömək edəcəklər. Mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək final oyunu saat 23:00-da başlayacaq.

## Zidan Beyllə bağlı qərarını açıqlayıb

"Real"ın baş məşqçisi Zinəddin Zidan Qaret Beylin komandadakı gələcəyi haqda danışıb. Qol.az-ın İspaniya mətbuatına istinadən yaydığı məlumata görə, 46 yaşlı mütəxəssis uelsli yarımmüdafiəçiyə çox şans verməyəcəyini bildirib: "Qarşıda daha bir oyunumuz var. "Betis"lə matçda Beylin oynayıb-oynamayacağını deyə bilmərəm. Onunla bağlı fikrim dəyişməyib. Mövsüm başa çatsın, vəziyyətin necə olacağına baxarıq". Qeyd edək ki, Beylin yayda "Real"dan ayrılacağı gözlənilir.

## "Neftçi"nin hazırlıq planı



"Neftçi"nin 2019/2020-ci illər mövsümü üçün hazırlıq planı müəyyənləşib. Klubun rəsmi saytında yer alan məlumata görə, hazırlığın ilk mərhələsi iyunun 10-dan 15-dək Bakıda olacaq. Bu müddət ərzində tibbi baxışdan keçəcək komanda üzvləri fiziki testləri də yerinə yetirəcəklər. Təlim-məşq toplanışının ikinci mərhələsi isə iyunun 15-dən iyulun 1-dək Türkiyədə olacaq. Topuk yaylası bölgəsində yerləşən "Fenerbahçe Topuk Yaylası Resort and Sport" otelində məskunlaşacaq komanda qardaş ölkədə 3 yoxlama görüşü keçirməyi planlaşdırır. Oyunlar iyunun 20-si, 25-i və 30-da olacaq. Rəqiblər haqda isə hələlik məlumat verilmir.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600